**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**CABAROVA ƏZİZƏ İBRAHİM QIZI**

# V.VULF YARADICILIĞINDA GENDER PROBLEMİ

**060201-Filologiya-Ədəbiyyatşünaslıq (İngilis ədəbiyyatı)**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

Elmi rəhbər: ____________
Rasimə Fərhad qızı Əsədova
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**BAKI – 2022**

## MÜNDƏRİCAT

**GİRİŞ .................................................................................................................... ....3**

**I FƏSİL. GENDER PROBLEMİ VƏ MÜASİR ƏDƏBİYYATDA V.VULF YARADICILIĞININ YERI.....................................................................8**

1.1. Gender probleminə dair müxtəlif yanaşmalar...............................................8

1.2. Modernizm və Virciniya Vulf yaradıcılığı...........................................….....23

**II FƏSİL. V.VULF YARADICILIĞINDA GENDER PROBLEMİNİN İŞLƏNMƏ SƏCİYYƏSİ...................................................................…...38**

2.1. "Xanım Dallovey" əsərində nizamlayıcı funksiya kimi evlilik..................38

2.2. "Mayaka doğru" əsərində despot rejimin dağıdılması...............................51

**NƏTİCƏ**....................................................................................................................67

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**...................................................................70

# GİRİŞ

**Mövzunun aktuallığı.** Patriarxal cəmiyyət qadınların yaşayış sahələrinin çərçivələrini və qadınların həyatındakı qayda və normaları məhdudlaşdırırdı. On doqquzuncu əsr patriarxal cəmiyyətində qadın həm cəmiyyət, həm də kişilər tərəfindən qul kimi göründüyü və davranıldığı üçün qadınların, nəinki ictimai və siyasi hətta da incəsənət və ədəbiyyat sahələrində belə öz varlıqlarını nümayiş etdirmək şansı yox idi. Virciniya Vulf bir yazıçı kimi qadınların müstəqil şəkildə yazması və özlərini sərbəst şəkildə ifadə etməsi üçün bu hərəkta öncüllük etmişdi. Vulf özü də, bir qadın kimi həyatında cəmiyyətin məhdudiyyətlərinə məruz qalmağın, təhsil ala bilməməyin və kişilər qədər imkana sahib ola bilməməyin yaratdığı çətinliklər ilə mübarizə aparırdı. O, esselərində, romanlarında və məktublarında qadınların bərabərlik uğrunda mübarizəsini hər zaman dəstəkləmişdi.

1882-ci ildə Adelin Virciniya Stefen olaraq anadan olan və Viktoriya mühitində böyüyən Virciniya Vulf ingilis ədəbiyyatının ən görkəmli müəlliflərindən biri hesab olunur. Virciniya Vulf, ənənəvi ədəbi yazı texnikalarını rədd etdiyi, eksperimental dili ilə qəlibləri qırdığı üçün ingilis dilinin ən mühüm yenilikçilərindən biri olaraq tarixə düşmüşdür.

20-ci əsr ədəbiyyata modernizm adlanan yeni bir üslub gəldi və Virciniya Vulf bundan təsirlənərək, onun üçün xarakterik olan şüur axını texnikasına öncüllük etdi. Vulf öz dövründə romanları və nəzəri tənqidləri ilə məşhur idi. O, bir çox janrlarda öz qələmini sınamışdı - jurnallar, məktublar, qısa hekayələr və romanları bunlardan bəziləri idi. Onun bədii yaradıcılığında ümumi əsas xüsusiyyət onun personajlarında təqdim olunan daxili mürəkkəblikdir, çünki Vulf daxilimizdə bizimlə qarşılıqlı əlaqədə olan və eyni zamanda ziddiyyət təşkil edən çoxlu mən olduğuna inanır. Vulf , vaxtaşırı özü ilə ziddiyyət təşkil etdiyini etiraf edir və romanlarındakı personajlara bu meyli şüurlu şəkildə verdiyinidə qeyd edir.

Onun yaradıcılığı xüsusilə feminizm və modernizm baxımından geniş şəkildə müzakirə edilir. Cəmiyyətdə qadınlara qarşı qoyulan sosial məhdudiyyətlərə baxmayaraq, Virciniya Vulf qadınların böyük nailiyyətlər əldə etmək gücünə hər

zaman inanırdı. O, həyatı boyu qadınların  azadlığını və gender bərabərliyini müdafiə etdi. Vulfun müdafiə etdiyi digər əsas məsələ isə qadınların öz fikirlərini daha sərbəst ifadə etmək və öz əsərlərini yaratmaq üçün iqtisadi azadlığa malik olmalarıdır.

İndiyədək Virciniya Vulfun romanları və elmi məqalələrində qadınların şəxsi və məişət həyatından, ictimai mühitdəki vəziyyətindən, eləcə də qadınlara biçilmiş obrazlardan bəhs edilirdi. Vulf Qərb mədəniyyətində əhəmiyyətli bir feminist müəllif kimi qəbul edilir və onun əhəmiyyəti bu gün də davam etməkdədir. Bu mənada Vulfun Orlando, xanım Dallovey, Özünə aid bir otaq , Üç Qvineya və Mayaka doğru kitabları feminist mövqeyi nəzərdən yüksək qiymətləndirilmişdir.

Özünə aid bir otaq (1929) adlı məşhur essesində Vulf qadın üçün öz otağının, pulunun və təhsilinin vacibliyini vurğulayır, çünki sadəcə bunun sayəsində qadınlar uğurlu bir yazar çevrilə bilərdi.

"Mayaka doğru" əsəri hər cür tənqidlərə tab gətirə biləcək qədər güclü ideyaları özündə birləşdirən kitabdır. Virciniya Vulf "Mayaka doğru" əsərində öz personajlarının köməyi ilə istər mənfi, istərsə də müsbət, ailə daxilində oynadıqları rollar arasında əlaqə qurmağa çalışır .Eynilə, Vulf hər bir qadın obrazını tam təfərrüatı ilə təsvir edərək qadınların parlaq tərəflərini daha çox konkretliklə təqdim etməyi bacarır.

"Xanım Dallovey" əsərində rast gəldiyimiz kimi evlilik mövzusu Vulfun romanlarında zəngin bir mənbə hesab olunur. Aydındır ki, Vulf, Viktoriya dövrü qaydalarının insanlara təsirinin və Viktoriya İngiltərəsindən gələn evlilik anlayışının sağlam gender rolları necə sarsıtdığının fərqində idi. Qadınlar onun üçün "evdəki mələklər" deyildi. Müasir nöqteyi-nəzərdən onlar müəyyən müstəqillik əldə etməli idilər.

Dissertasiya işinin aktuallığı, bir tərəfdən, Vulf romanlarında  gender məsələlərinin hansı formada işlənməsinə aydınlıq gətirmək zərurəti ilə şərtlənir digər tərəfdən, Virciniya Vulfun yaradıcılığının əhəmiyyətli və zəruri  olmasının danılmaz faktı ilə şərtlənir. XX-XXI əsrlərdə ingilis və dünya mədəniyyətində ədəbi prosesin komponenti olaraq, Vulf Avropa mədəniyyətinin inkişafına mühüm təsir göstərmiş yenilikçi və modernizm nəzəriyyəçisi kimi görünür.

**Problemin öyrənilmə dərəcəsi:** XX əsr Britaniya yazıçısı Virciniya Vulf yenilikçi yaradıcılığı, xüsusilə romanları ilə İngilis ədəbiyyatında dərin şəkildə tədqiq edilmişdir. Yazıçının yaradıcılığı gender məsələlərinin dərindən işləndiyi kitabların müəllifi kimi müzakirə edilmiş, bu problem haqqında elmi tədqiqat işləri yazılmışdır. Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığında onun tərcümələrinə geniş formada rast gəlinir və yaradıcılığı haqqında bir çox mənbələrdə məlumatlara rast gəlinir.

Virciniya Vulfun dünya şöhrətli romanları həm yazıldığı dövrdə, həm də çağdaş ədəbiyyatşünaslıqda kifayət qədər öyrənilib, haqqında məqalələr nəşr edilmişdir. Pamela L, Armstrong Nensi, N.P.Mixalskayanı, D.Q.Jantyevanı, N.Y.Jluktenkonu kimi ədəbiyyatşünaslar Virciniya Vulf yaradıcılığını tədqiq edib araşdırmışlar.

**Tədqiqatın məqsəd və vəzifələri:** Magistr işinin əsas məqsədi Virciniya Vulf yaradıcılığında gender məsələsinin işlənməsinin problem dairəsini müəyyən edib öyrənmək, yazıçının Mayaka doğru və Xanım Dallovey romanları təhlilə çəkmək, gender problemlərinin təzahür xüsusiyyətlərinə aydınlıq gətirməkdir.

Tədqiqatın məqsədinə uyğun aşağıdakı göstərilən vəzifələrin həllinin icrası nəzərdə tutulur:

1. Araşdırılan məsələ ilə bağlı bədii və elmi ədəbiyyatın nəzəri təhlilini aparmaq;

2. Mövcud nəzəriyyələrinin təhlili əsasında Vulfun romanlarının xüsusiyyətlərini müəyyənləşdirmək;

3. XX əsrdə gender məsələlərinə olan müxtəlif baxışları müəyyən etmək;

4. Modernizmin yaranması və Vulfun yaradıcılığında izlərini təyin etmək;

5. Yazıçının yaradıcılıq irsindəki gender məsələsinin mərkəz olduğu əsərlərin yerini təsvir etmək;

6. V.Vulfun yaradıcılığında məşhur olan romanların inkişaf dinamikasını izləmək;

**Tədqiqatın obyekti:** Magistr dissertasiya işinin obyekti XX əsr Britaniya ədəbiyyatında feminist müəllif kimi tanınan Virciniya Vulf yaradıcılığıdır.

**Tədqiqatın predmeti:** Vulfun məşhur romanlarında gender probleminin

öyrənilməsi və müəyyən edilməsi dissertasiyanın predmetini təşkil edir. "Mayaka doğru" və "Xanım Dallovey" romanlarında sosial və siyası təzyiqlər, Viktoriyan mühitinin qadınlar üzərində təsiri və qadınların azadlıq uğrunda apardığı mübarizədə qarşılaşdığı problemlərin öyrənilməsi də magistr işinin predmeti sırasındandır.

**Tədqiqat işinin metodoloji bazası:** Dissertasiya işinin metodoloji əsası bioqrafik, müqayisəli-tarixi və analitik metodlarının təhlil prinsiplərindən və eyni zamanda müşahidədən, təhlildən və sintezdən əldə olunmuş müddəaları təşkil edir. Tədqiqat işində yazıçının yaradıcılığı böyüdüyü dövrlə əlaqəli öyrənildiyindən bioqrafik metoddan istifadə edilib. Yazıçının ədəbi fəaliyyətini ardıcıllıqla izləməyə yardımçı olan bioqrafik metod lazımi nəticələrə yol açmışdır. Eyni zamanda, analitik metodun köməyi ilə dövrün ictimai-siyasi, sosial problemlərinə magistr dissertasiyası çərçivəsində münasibət bildirilmişdir.

**Tədqiqatın elmi yeniliyi:** XX əsr Britaniya ədəbiyyatında gender probleminin inkişafında müstəsna rolu olan Virciniya Vulf yaradıcılığı müasir dövrün ədəbi problemləri müstəvisində öyrənilmişdir.

Qadınlara qarşı bərabərsizliyə xüsusi həssaslıqla yanaşan yazıçının hekayə və roman yaradıcılığında ictimai-siyasi və sosial məsələlərə aydınlıq gətirilmiş, romanlarında siyasi və sosial təzyiqlər, qadınların incəsənətdə müəyyən yerə sahib olması və iqtisadi azadlıq kimi problemlər müəyyən edilmişdir. Vulf yaradıcılığında ədəbiyyatın digər sənət növləri ilə qarşılıqlı əlaqə prinsipləri və formaları müəyyən edilir, onu ahəngdar bədii birliyə və daxili inkişafın məntiqinə malik üzvi inteqral sistem kimi nəzərdən keçirməyə imkan verir.

**Tədqiqatın nəzəri əhəmiyyəti:** təqdim olunan dissertasiya işində Vulfun əsərlərində qaldırılan gender probleminin öyrənilməsi, aydınlaşdırılması və inkişaf etdirilməsidir.

**Tədqiqatın praktik əhəmiyyəti :** Təqdim olunan tədqiqat işindən alınan nəticələrdən tədris proqramlarında, metodik vəsaitlərin hazırlanmasında, ingilis ədəbiyyatına dair seminarlarda istifadə oluna bilər. Magistr dissertasiyası həmçinin İngilis ədəbiyyatını tədris edən müəllimlər, xarici dil fakültələrinin bakalavr, magistr pillələrinin tələbələri üçün əhəmiyyətli ola bilər.

**Tədqiqatın aprobasiyası:** Azərbaycan Dillər Universitetinin xarici ölkələr ədəbiyyatı kafedrasında aprobasiyadan keçmiş, kafedranın iclaslarında müzakirə edilmiş, “Virciniya Vulf yaradıcılığında gender məsələsinin işlənmə səciyyəsi” adlı məqalə çapdan çıxmışdır. Məqalə tədqiqat işinin mövzusu ilə səsləşir və mövzunun prinsipləri əsasında qələmə alınmışdır.

**Dissertasiya işinin strukturu:** Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL
# GENDER PROBLEMİ VƏ MÜASİR ƏDƏBİYYATDA V.VULF YARADICILIĞININ YERİ

## 1.1 Gender probleminə dair müxtəlif yanaşmalar

Əsrlər boyunca cins və gender terminləri davamlı olaraq bir-biri ilə qarışdırılıb. Onlar bir-biriləri ilə əlaqəli olsalar belə, müxtəlif məqsədlər üçün istifadə olunurlar. Bu bir-birinə qarışmış iki ifadə XVIII əsrdən etibarən geniş şəkildə ədəbi, feminist, mədəni, siyasi və dini müzakirələrin mərkəzinə çevrildi.

Simon de Buvuar qeyd etdiyi kimi: *"One is not born, but rather becomes a woman."* [26, s144]. *(Qadın doğulmur, qadın yaranır.)* Cins doğulduğumuz deyil, insanların toplum tərəfindən yaradılmış strukturda necə formalaşması və davranmasıdır. Bu struktur kişilərin dominant və aqressiv, qadınların isə daha emosional və itaətkar olması ideyasını irəli sürür. Və nəticədə, illərdir ənənəvi cinsiyyət iyerarxiyasında qadınların həyatda qala bilməsi üçün bu normaları qəbullanması müstəsna hala çevrilmişdir.

Gender fərdlərin bioloji xüsusiyyətləri ilə açıqlana bilməyən, cəmiyyət və adət-ənənələr tərəfindən cinslərə aid edilən anlayışdır. Gender cinsi əmək bölgüsü və bioloji cinslər arasındakı münasibətləri və fərqləri vurğulamaq üçün sadəcə qadınların deyil, kişilərin də cəmiyyətdəki mövqeyini müəyyən edir. Buna görə də, hesab etmək olar ki, gender kişilər və qadınlar arasındakı fərqlərin sosial olaraq qurulmuş tərəflərinə diqqət çəkməkdədir. Digər tərəfdən, kişi və qadın arasındakı fərq nə qədər təbii olsa da, yalnız kişini mərkəzə qoyan və onu müstəqil cins kimi qəbul edən düşüncə sadəcə 18-ci əsrə qədər varlığını davam etdirə bilmişdir. 18-ci əsrin sonları qadınların kişilərdən asılı olmayan müstəqil bir cinsə sahib olması fikrinə səbəb olan ciddi dəyişikliklər dövrü idi.

Burada əslində ifadə edilməsi nəzərdə tutulan anlayış odur ki, cins termini insan həyatının bir sıra fiziki və psixoloji aspektlərində kişi və qadın arasındakı fərqin

vurğulanması lakin digər tərəfdən isə gender müəyyən bir millətin və ya ölkənin mədəni və ideoloji dəyərləri ilə bilavasitə bağlı olan anlayışdır. Beləliklə, gender qadın və ya kişi kimi təyin olunmağın mədəni, sosial və psixoloji aspektlərinə istinad edir. Bir çox feministlər üçün cins anlayışı kollektiv bir anlayış olduğu üçün yalnız biologiyanı əsas dayaq kimi qəbul etmək ciddi müzakirələrin yaranmasına səbəb olacaqdır. Çünki bunun səbəbi bioloji əsaslı cinsi ayrı-seçkilik hakim gücün kişilərin əlində olacağı bir sistemə doğru təkamül edə biləcəyinə dair ümumi inanc yaradır. Bu səbəbdən feministlər, gender anlayışının tərifinə mədəni və sosial xarakter əlavə etməyi vacib hesab edirlər.

Keçmişdə qadınların vəzifəsi açıq-aydın şəkildə ev işlərini görmək, uşaqlara qulluq etmək, evi təmizləmək, ailəyə yemək bişirmək və ərlərini razı salmaq idi. Bu rollar və vəzifələr doğulduqları andan onlara təbii olaraq verilmiş məsuliyyətlər deyil əksinə zaman keçdikcə patriarxal rejim tərəfindən mədəni və ideoloji cəhətlərdən tərəfindən qurulur və bu vəzifələr qadınlara təbii həyat tərzi kimi aşılanır.

Cins (sex) və gender anlayışlarını bir-biri ilə əlaqələndirmək meyli bir çox feministlərin dəstəklədiyi bir yanaşmadır. Şəxsiyyətin sosial və siyasi xüsusiyyətlərini ortaya çıxaran bütün psixo-sosial elementləri özündə birləşdirən gender anlayışı səthi anlayış olmaqdan fərqli olaraq, konseptual hadisələri mərkəzə yerləşdirən baxış tərzidir. İnsan doğulduğu cəmiyyətdən və bu cəmiyyəti təşkil edən ünsürlərdən təsirlənməməsi mümkün olmayan bir varlıqdır. Əslində qeyd etmək olar ki, cəmiyyətin və hər bir sosial ünsürün insanlara formalaşdırıcı təsiri etdiyi danılmaz bir həqiqətdir. Və fərdin sosial və ictimai həyat ilə münasibəti hər bir cəmiyyətdə müəyyən qəbulların yaranmasına münbit şərait yaratmışdır. Bu vəziyyət qadın və kişilərin hansı işlərdə çalışmasından tutmuş, ictimai quruluşda hansı xüsusiyyətləri və davranışları sərgiləməsinə qədər müəyyən edilmişdir. Platon, Dövlət kitabında qadınların cəmiyyətdəki yerindən bəhs edərkən vurğulayır ki, hər iki cins təbiətcə bir-birindən fərqlidir, lakin qabiliyyət baxımından doğuşdan bərabərdirlər . [3. s157]

Əslində, patriarxal cəmiyyətin kökü bəşər tarixinin ən əvvəlindən mövcud idi. Bunu mifologiyada qadını nizamı pozan, insana bəla və dərs gətirən biri kimi də adlandırmasından anlaya bilərik. Tanınmış yunan filosofu Aristotel gender ilə bağlı

sərt fikirlərini cinslər haqqında danışsaq əgər, kişilər təbiətcə üstün və hökmdar, qadın isə aşağı və zəifdir, cümləsi ilə anlaya bilərik.

Orta əsrlərə nəzər saldıqda isə qadınların yenə də kişilərin lehinə olan patriarxal cəmiyyətin qurbanları olduğunu görə bilərik. Qadınların rolu məişət mühitində ailəsi üçün fədakar və qayğıkeş olmaq, kişilərin isə sosial həyatda aktiv olub ailəsinə çörək gətirmək idi. Bundan əlavə qeyd etmək lazımdır ki, yunan mifologiyasında olduğu kimi, orta əsrlərdə də qadınlara məşhur "Ser Qavayn və Yaşıl cəngavər" poemasında yazıldığı kimi kişiləri başdan çıxaran və aldadan bir imaj verilmişdir.

İntibah dövründə qadınlar üçün ayrılan rollar və yer orta əsrdən çox da fərqlənmirdi. Onlar üçün uyğun hesab edilən yegaənə təhsilin tikiş tikmək, musiqi alətində ifa etmək, ev işləri görmək olduğu üçün qızlar təhsildən məhrum idilər. XVII əsrdə hakim olan puritan əxlaqi baxışlara patriarxal cəmiyyət qadınlar üzərində öz iqtidarını gücləndirdi.

Viktoriya dövrü qadınlar və onların gender kimliyi üçün ən pis dövr hesab edilirdi. Bu dövrdə patriarxal əxlaqi dəyərlər və mədəniyyət kişilərin dünyagörüşünü, istək və tələblərini təmin edəcək şəkildə cinsi ayrı-seçkiliyə açıq şəkildə dəstək olurdu.

Qadınlar sənaye inqilabının təklifləri ilə aldadıldı və ilk başda azadlıq və iqtisadi müstəqillik vədləri ilə qadınlar ev mühitindən kənara çıxmağa başladı. İlk vaxtlarda bu təkliflər olduqca anlayışlı səslənirdi və onların hisslərinə, qəlblərinə toxunurdu. Evdən kənarda olsalar da, ictimai həyatda olduqlarına sevinməyə başlasalar da, dəyirman, istehsal və ya süd məhsulları kimi fabriklərdə kişilərin gördüyü eyni işlərlə məşğul olub lakin kişilərdən daha az maaş alırdılar. Nəticə olaraq ev və ya çöldə olmaq heç bir fərq yaratmadı. Qadınlar patriarxal cəmiyyətdə hər iki şəkildə tələyə düşür və rejimin qurbanına çevrilirlər.

On doqquzuncu əsrdən etibarən, qadınların hüquqları, rolları və həyatı haqqında təsəvvürlər kəskin şəkildə dəyişdi. Və yanaşmaların dəyişməsinə səbəb olan bir çox faktor var idi. Onlardan biri olan feminizm qadın hüquqlarının dəyişməsində və inkişafında mühüm rol oynamışdır. Bir fenomen kimi köklü tarixi

olan söz fransızca qadını təsvir etmək üçün femme sözündən yaranır və sonuna –ism şəkilçisi əlavə edilməklə, gender məsələsi ilə bağlı siyasi və ya ictimai ideologiyaya istinad edir.

*“ Qadın davranışlarında inqilab etmək vaxtıdır - onlara itirilmiş ləyaqətlərini qaytarmaq və onlara bəşəriyyətin bir parçası kimi dünyanı dəyişmək üçün, ilk olaraq özlərini dəyişməklə başlamağın vaxtı olduğunu bildirmək lazımdır. Sabit yerli əxlaqi dəyərləri dəyişdirməyin zamanı artıq çatıb.”* [37 s. 47]

Liberal feminist hərəkatının əhəmiyyətli nümayəndələrindən biri hesab olunan Meri Uolstounkraft, dövrün İngiltərəsində patriarxal cəmiyyəti tənqid etməsi ilə tanınır. Hesab etmək olar ki, qadınların sosial arenadakı mövqeyi və Fransa İnqilabını tənqid etməsi müəllifi öz dövrü ilə müqayisədə radikal bir mövqeyə daşıdı. Müəllif məşhur Qadın hüquqlarının əsaslandırılması (A Vindication of the Rights of Woman) əsərində Fransa İnqilabının qeyri- bərabər və haqsız münasibət sərgilədiyini bildirir. Uolstounkraftın kitabı həm də qadınların emosional olduğu stereotiplərini tənqid edən və qadınların kişilər tərəfindən qiymətləndirilməməsini müdafiə edən bir əsərdir. 1792-ci ildə Meri Uolstounkraft islahat axtarışının bu gün də davam edəcəyi düşünülməyən, qadınların sosial statusunda bir inqilaba ehtiyac olduğunu söylədi. Bu inqilaba gün bizim təbii qəbul etdiyimiz hüquqlar, yəni səsvermə, əmlaka sahib olmaq, vərəsəlik, pul saxlamaq və borc götürmək, boşanma, uşaqların qəyyumluğunu saxlamaq və ya təhsil almaq hüququ daxildir.

*Feminizmin anası* və ya *ilk feminist* kimi tanınan Meri Uolstounkraft dövrünün feminist yazarları hesab olunan Olimp de Quje, Sarah Qrimke Fransez və Rayt Flora Tristan kimi, qadınların sıxışdırılmış vəziyyətdən çıxış yollarını axtaran ilk feministlərdən biri olub. Liberal feminist düşüncənin əsas özəyini təşkil edən haqq və hüquq anlayışı da müəllifin fikirlərinin əsasını təşkil edir. O, qadın və kişilərin bərabər hüquqlara, xüsusən də təhsil hüququna malik varlıqlar olduğundan kitabında bəhs edir. Və o u düşüncənsini isə, kişi və qadının eyni tanrının övladları olması faktı ilə açığlayır. İnsan olmağın ən mühüm şərti isə ağılla hərəkət etməkdir. Bu həm də insanı heyvanlardan fərqləndirən ən mühüm xüsusiyyətdir. Müəllifin fikrincə, zehni inkişaf etmiş qadın kor-koranə itaət etməz. Bu məqamda isə onun kitabında təhsilin

vacibliyini dəfələrlə vurğulaması və qadınların təhsil hüquqları ilə təmin edilməsi bağı həssaslığını anlamış oluruq.

Onun fikrincə, qadının müstəqil fərd olmasına şərait yaradacaq ən mühüm amillərdən biri qdının iqtisadi cəhətdən özünü təmin edə bilməsidir. Uolstounkrafta görə, qadınların ictimai sahələrdə iştirak etmələri və söz sahibi və özlərini inkişaf etdirmləri olmaları üçün iqtisadi azadlığa nail olmaları çox vacibdir. Beləliklə, qadınlar ailə institutu adı altında qanuni yolla özlərini satmaq məcburiyyətində qalmayacaqlar.

Uolstounkraftın kitabının ən mühüm və müzakirə edilən tərəfi məşhur Maarifçilik dövrünün nüfuzlu filosofu Jan-Jak Russonun qadınlarla bağlı fikirlərinin tənqididir. Russo özünün hələ də feminist nəzəriyyəçilərin reaksiyasına səbəb olan ən mübahisəli və ən məşhur "Emile və ya Təhsil" (Émile, or on Education) kitabında belə təklif edir:

*(... Buna görə də qadının təhsili kişiyə münasibətdə planlaşdırılmalıdır. Onun nəzərində xoş olmaq, hörmət və məhəbbətini qazanmaq, onu uşaqlıqda yetişdirmək, tərbiyə etmək, öyüd-nəsihət vermək, təsəlli vermək, həyatını xoş və xoşbəxt etmək hər zaman qadının vəzifəsidir. Bu prinsipdən nə qədər uzaqlaşsaq, məqsədimizdən bir o qədər uzaqlaşacağıq.* ) [24, s. 342]

Russo respublika idarəetmə formasını dəstəkləyirdi və ona görə də onun üçün vətəndaşlıq anlayışı çox önəmli idi. Russo vətəndaşlıq hüquq və vəzifələrini cinslərə görə fərqli şəkildə müəyyən etmişdir. Qadınlar yalnız kişi vətəndaşların arvadı kimi vətəndaşlıq hüququna malikdirlər. Bu baxımdan onların yeganə haqqı namuslu olmaq və ailənin qayğısına qalmaqdır. Başqa sözlə, qadınların vətəndaşlığı yaşadığı ev ilə məhdudlaşdırılmalı idi. Russo haqqında tənqidlərinə maraqlı bir iddia ilə başlayan Uolstounkraft məşhur yazıçının qadınlarla bağlı fikirlərinin şəxsi həyatında yaşadıqlarından asılı olaraq formalaşdığını iddia edir. Həyat yoldaşını cəmiyyətdəki digər qadınlardan daha aşağı səviyyədə görən Russo, həlli bütün qadınları da o səviyyəyə endirməkdə görür.

Şübhəsiz ki, Russonun düşüncələri kitabın yazıldığı o dövrdə müəyyən qədər qəbul oluna bilərdi, bu da həmin cəmiyyət quruluşunun belə bir anlayışa uyğun

olduğunu göstərir. Zaman keçdikcə patriarxal cəmiyyət tərəfindən başa düşüldü ki, qadının mövcud vəziyyətinin inkişafı bu cür davam edərsə, bu vəzyyət kişilərin xoşbəxtliyini və rahatlığını pozacaq. Ona görə də Russoya görə qadınları maarifləndirmək və yaşayış yerindən yəni evindən ayırmaq ağılsızlıq olardı.

Diqqətlə baxıldığında, qadınların kişilər üçün doğulduğu anlayışı, məşhur ingilis satirik yazıçısı Edvin Abot Abotun sətirlərində: Qadınların ağılları əskik, lakin duyğuları çox olduğu üçün onlara daha rasional davranılmamalı və onlar təhsil almamalıdırlar... Qadınlar arasında, biz cinsiyyətlərinə son dərəcə ehtiram bildirən dildən istifadə edirik, lakin onlarn haqqında ağılsız orqanizmlər kimi düşünürük deyə qeyd edir. (8)

Aydın oldu ki, Russonun qadınların təhsil almaması və evə qapanmaları ideyasından təxminən bir əsr sonra Abbotun qadınları ağılsız orqanizmlər kimi təyin etməsi yüz ildə heç bir irəliləyişin olmadığını göstərir. Buna görə də, XIX əsrə qədər qadınların sosial və siyasi vəziyyətinin yaxşılaşmasından danışmaq çətin idi. Ədəbiyyat, mədəniyyət və incəsənət kimi sahələrdə köklü inqilabları ilə tanınan modernizm eyni zamanda Birinci Dünya Müharibəsi, qloballaşma, misilsiz texnoloji inkişaf və gender ideologiyasındakı dramatik dəyişikliklərin kəsişməsi nəticəsində yaranan narahatlığa qarşı mübarizə apardı.

Siyasi və sosial sahələrdə baş verən bu sarsıntılar və dəyişikliklər qərb sivilizasiyasında müxtəlif və geniş yayılmış böhranlar yaradır və Lin Piket əsrin sonunu, ilk növbədə, görünməmiş bir narahatlığa səbəb olan gender böhranı dövrü kimi təsvir edir. Həqiqətən də, qadınların seçki hüququ və qadınların müharibədə iştirakı, qadınların təhsili, mədəniyyət və ticarət dünyasına daxil olması uğrunda mübarizə görünməmiş bir narahatlıq yaratdı və gender məsələləri haqqında davam edən müzakirələr özünü ən açıq və gurultulu şəkildə göstərdi. Bu dövr üçün əsas fiqur isə yeni qadın konsepsiyasının yaradılması idi. Yeni Qadının isə açıq-aydın öz istəkləri və məqsədləri var idi. O, kişilər üçün əlçatan olan təhsilə bərabər təhsil, eləcə də təhsilindən istifadə edib müstəqil gəlir əldə edə biləcəyi bir peşə axtararaq ənənəvi gender rollarına qarşı çıxırdı.

Feminizmin mərkəz olduğu müzakirlərin nəticəsində çoxlu kiçik həcmli feminist hərəkatlar baş versə də, üç mühüm dalğa meydana gəldi. Birinci dalğa Nyu-Yorkda 1848-ci ildə keçirilən Birinci Seneka Konvensiyaları ilə başladı və XX əsrin əvvəllərinə qədər davam etdi. Qadınlar öz statuslarını qul statusu ilə əlaqələndirdilər və köləliyi ləğv etməyin yollarını axtardılar. Həmin fəallara "abolitionistlər" deyirdilər. Məşhur fəallar və abolitionistlər Suzan B. Entoni, Elizabet Kedi Stanton, Lukretiya Mott qadınlar üçün sosial, mənəvi və siyasi hüquqların, xüsusən də səsvermə hüququnun əldə edilməsində rəhbərlik etdilər.

Qadınlara səsvermə hüququ qazandırmaq fikri ilə başlayan birinci feminist hərəkat zaman keçdikcə hədəflərini ardıcıl olaraq yenilədi. Birinci dalğa feministləri siyasi gücə sahib olmaqla yanaşı, həyatın cinsi və iqtisadi tərəfləri kimi vacib mövzulara da toxundu. İlk feminist dalğa Uolstounkraftın "Qadınların Hüquqlarının Təminatı" kitabında irəli sürdüyü tələblər üzərində qurulmuşdur. Ümumiyyətlə, bu tələblərə qadınların seçki hüququ, təhsildə bərabər imkanlar, qadınların mülkiyyət hüquqları daxildir. Halbuki bu tələblər dövrün şərtlərinə uyğun olaraq fundamental hüquqi xarakter daşıyır.

19-cu əsrin əvvəllərinə qədər qadınların heç bir hüquqi və siyasi statusu yox idi, onlar ictimai, mədəni və siyasi mühitdə vətəndaş olaraq mövcud deyildilər. Tək etməli olduqları evlənmək və uşaq sahibi olmaq idi, əks halda onlar konstitusiyaya uyğun olaraq qanuni yetkinlik yaşına çatmayan vətəndaşlar kimi qalacaqdılar. 19-cu əsrin sonlarına doğru qeyri-bərabərliyin izləri həyatın hər sahəsində hələ də açıq-aydın görünürdü. Qadınlarla bağlı ümumi konsepsiyanı açıq şəkildə on doqquzuncu əsrin ortalarının ən məşhur yazıçılarından biri Con Todd izah edirdi ki, qadınlar bəziləri Blumer paltarı geyinərək yarı kişi olmağa çalışdılar. Halbuki əsl qadın uzun paltarını geyinərək zərif-zərif addımlayandır. ... Əgər o qaçmağa cəhd etsə, cazibəsi həmin an yox olar... [ 30 s. 16] Qadınlar məişət kultuna sadiq qalmalı idilər və çıxış, nümayiş, etiraz kimi hər hansı hərəkətlər qadına xas görünməyəcək və buna görə də hörmətsizlik kimi hesab olunacaqdı.

Marqaret Uotersin Feminizm adlı kitabında qeyd etiyi kimi, evli bir qadın üçün evi həbsxanaya oxşayır. Sadəcə evin özü deyil, eləcə də içindəki hər şey ərinə

məxsusdur və ən əsası qadınlara sadəcə damızlıq kimi davranılmasdır. Evli qadınlar əslində kölədirlər, onların vəziyyəti Qərbi Hindistandakı zəncilərinkindən fərqli deyil. O dövrdə qadınlara heç bir hüquq və mülkə malik olmayan qulluqçular kimi rəftar olunurdu.

Xüsusən də 19-cu əsrin sonlarına doğru qadınların seçki hüququna yiyələnməsinə yönələn hərəkatlar başladı və tarixə Sufrajistlər hərəkatı olaraq keçdi. Seçki hüququ təkcə qadınların cəmiyyətə qəbulu kimi deyil, həm də qadınların həyatını yaxşılaşdırmaq üçün vacib hesab olunurdu. İngiltərədə sufrajistlər hərəkatının ən böyük fiqurları Pankhurst ailəsi, Emili Deyvis idi. Emili Deyvis qadınların təhsilinə töhfə verdi, qadınların kişilərlə eyni təhsil alması lazım olduğunu irəli sürdü.

Qadın Hüquqları və Qadın Seçki Hərəkatındakı siyasi irəliləyişlər öz bəhrələrini verməyə başladı və qadınların ədəbi həyatında bir yol yarandı. Ayrılmaz hüquqlar axtarışından sonra qadınlar indi öz kimliklərinin ən qiymətli hüququ hsab olunan, özünü ifadə etmək hüququnun arayışına başladılar. Britaniyada qadınlara səsvermə hüququnun verilməsindən bir il sonra, 1929-cu ildə Virciniya Vulfun Özünə aid bir otaq kitabının nəşri qadın ədəbi hərəkatında bir irəliləyiş etdi.

Vulf ilk növbədə qadınların uğurlu yazar ola biləcəyi intellektual düşüncəyə malik olmadığı konsepsiyasını tənqid etməklə başlayır. O, iddia edir ki, qadınların həddindən artıq yükü daşımaları, təhsildən məhrum olmaları, kişilərdən maddi asılılıq və şəxsi “öz otağının” olmaması kimi digər sosial çatışmazlıq onların uğur qazanmamasının səbəbidir. O, iddia edir ki, əgər qadınlar şəxsi məkan və maliyyə müstəqilliyi ilə təmin olunara, tam potensial yazıçı kimi özünü ifadə edəcək gücə və istedada sahibdir. Bununla belə, sadəcə qadınların özləri haqqında yazmağa başlamalı olması arqumenti Özünə aid bir otaqda ən vacib bir məqamdır, çünki feminizmin bütün dalğalarında feminist ədəbi tənqidi çərçivəyə salan məhz bu ideologiyadır. Vulf təklif edir ki, yazan birinin öz cinsiyətini düşünməsi ölümcüldür.

Birinci dalğa feminizmi, qadınlara siyasi və sosial hüquqların verilməsi arqumenti ilə başlasa da, qadın yazmağa başlaması şüurunu oyatmış Virciniya Vulf ilə kulminasiya nöqtəsinə çatdı. Ədəbiyyatda qadınların zülmü və bu patriarxal

despotizmi məhv etmək üsulları, birinci dalğadan sonrakı feministlərin əsas qayğısına çevrildi.

Feminizmin ikinci dalğası İkinci Dünya Müharibəsindən sonra başladı və qadınların hüquqi və sosial bərabərliyini əldə etməsinə, xüsusən də qadınlara qarşı cinsi istismarın aradan qaldırılmasına yönəlmişdi. Bu dövr həm də feminizmin birinci dalğasının davamı kimi başa düşülürdü, əslində "birinci dalğa" termini ikinci dalğa meydana gəldikdən sonra yaranmışdır. Birinci dalğa feminizm olan köhnə feminizm həm fərdiyyətçi, həm də islahatçı olsa da, yenisi daha kollektiv və inqilabi idi.

İkinci dalğa feministlər fiziki mənada bir cinsin digərindən fərqli olması onların sahib olduqları və ya sahib olacaqları hüquqlara məhdudiyyət yaratmamalı olduğunu müdafiə edir. Öz təbirincə desək, hansı səbəbdən olursa olsun bir cinsin digər cins üzərində üstünlük təşkil etməsinin düzgün olmayacağını, bunun hətta bəşəriyyətin inkişafına əngəl törədəcəyini qeyd edirlər. 19-cu əsrin sonlarına doğru liberal feminizmin daxilindəki dilemmalar marksist feminizmin doğulmasına yol açdı.

Marksist nəzəriyyədə tez-tez istifadə edilən yadlaşma anlayışı fərdlərin kapitalist nizam nəticəsində əqli və emosional çöküş yaşadıqları və alçaldıqları tezisinə əsaslanır. Marksist sistemin əsas tezislərinin feminizm düşüncəsi ilə əlaqələndirilməsi nəticəsində marksist feminizmin baxışları formalaşdı. Liberal feministlərin əksinə olaraq qadın problemlərini təbii hüquqlar anlayışına daxil etmir və marksist nəzəriyyə qadın problemlərinin kökündə sinfi fərqliliyin olduğunu iddia edir. Qadınların vahid həmrəylik qura bilməməsi qadınların problemlərinin əsas amilini təşkil edir.

İkinci dalğa qadın hərəkatında əsas məqsəd kişilərlə eyni statusa sahib olmaq lakin həm də kişiləri tamamilə mənfi fiqur kimi görməkdir. İkinci dalğa feminist hərəkatının ortaya çıxdığı illər həm də modernizmin kapitalizm və liberal siyasətlərlə birlikdə toplumu formalaşdırdığı dövrlərə təsadüf edir. Kişi və qadın cinslərinə xas xüsusiyyətlərin siyasiləşməyə başladığı illərdə, sosial və siyasi fərd kimi kişilərə üstünlük verən baxış, qadınların passivləşdirilməsini arzulayan, qadınlar üçün kişilərə təqdim olunan bir rola sahib olduğunu irəli sürürdü.

Qərb ölkələrində qadınların əlinə qələm aldıqları bir dövr idi. İkinci dalğadya damğasını vuran, "İkinci Cins" kitabı ilə Simone de Bovuar oldu. O, tarix boyunca patriarxal cəmiyyətin qadına necə münasibət göstərdiyini tənqid edir .Dövrün ən tanınmış mütəfəkkirlərindən olan Simone de Bovuarın qadın doğulmur, qadın yaranır ifadəsi ilə cəmiyyətdə anadangəlmə yaranan cinsi kimliyin patriarxal sistemin predmeti olmasına qarşı çıxaraq bütün cinsi kimliyə dair irəli sürülən iddiaların qadın isitsmarını qanuniləşdirməyə çalışan məhz patriarxal sistemin özü olduğunu vurğulayır. Bovuar cəmiyyətdə kişilər tərəfindən müəyyən edilən qadın qəbulunun qəti əleyhinə idi. O, əsasən qadınların sabit xüsusiyyətini formalaşdıran bioloji determinizmlə mübarizə aparırdı. Bovuarın dövrün əhəmiyyətli bir feminist siması olaraq ortaya atdığı fikirlər, birinci dalğanın təsirinin yavaşladığı və feminist düşüncələrin təsirinin azaldığı bir dövrdə ədəbiyyatda ikinci dalğa olaraq adlandırılacaq bu proses üçün mühüm başlanğıc yaratdı.

İkinci cins kitabında Bovuar əksər feministlər kimi, Ziqmund Freydin, qadınların doğulduğu andan başlayaraq kişilərə həsəd apardığına dair arqumentini tənqid edir. Bovuar qadınların həsəd apardığı şeyin onların anatomik üstünlüyü deyil, daha çox onların istifadə etdikləri sosial imtiyazlara və gücdür deyərək bu düşüncni rədd edir. Eynilə, Bovuarın qadınlar üçün olan hər hansı bir məsələ ilə bağlı açıqlamaları eyni zamanda siyasi idi. Bu nöqteyi nəzərdən gender bərabərsizliyi bu problemləri qadınların ictimai işlərdə bir araya gəlmək üçün sağlam düşüncə formalaşdıraraq daha kollektiv bir məsələyə çevirəcəkdi.

Qeyd etmək lazımdır ki, ikinci dalğa feminist hərəkatı bərabərsizliyi "bərabərsizlik" anlayışının olduğu bütün digər məsələlərə qədər genişləndirdilər. Bir tərəfdən, bu mərhələdə dominant məsələlər seksuallıq və uşaq dünyaya gətirmə hüquqları idi, digər tərəfdən feministlər qadınların tabe edilməsini kapitalizm, heteroseksuallıq, patriarxiya və qadınların ana və arvad vəzifələri kimi daha geniş problemlərlə əlaqələndirməyə çalışdılar. Buna görə də ikinci dalğada feminist hərəkat yaşından, cinsindən və irqindən asılı olmayaraq bütün qadınlarını əhatə etdi.

"Qadın mistikası" tənqidi kitabını yazan Betti Fridan indiyə qədər adı olmayan problemə aydınlıq gətirərək evdar qadınların bədbəxt vəziyyətini açığlamağa

çalışırdı. Kitabın birinci fəslində Fridan kişilərin qadın problemlərinə laqeyd münasibətini və paralel şəkildə qadınların özlərinin əsas problemlərini sağlamlıq və cansıxıcılıq kimi mənasızlaşdırmaq vərdişlərini pisləyir. Fridan adı olmayan problemi aşağıdakı kimi tapmağa çalışır:

*"Sadəcə adı olmayan bu problem nə idi? Qadınlar bunu ifadə etməyə çalışarkən hansı sözlərdən istifadə edirdilər? Bəzən bir qadın "özümü nədənsə boş, natamam hiss edirəm" deyərdi, ya da "özümü yoxmuş kimi hiss edirəm" deyərdi... Amma bu qadınların səslərindəki çarəsiz ton, gözlərindəki baxış, qəribə bir çarəsizlik hissi keçirsə də, heç bir problemi olmadığına əmin olan digər qadınların tonu və görünüşü ilə eynidir." [15s. 21]*

Betti Fridanın, Bovuar kimi vulqarlaşdırılmış və azğın kimi hesab etdiyi başqa bir məqam isə Ziqmund Freydin çıxarışları əsasında qurulan evli qadın imajıdır. O, Freydin psixoanalizdəki uğurlarını qəbul etməsinə baxmayaraq, onun cinsi fərqlər haqqında fikirlərinin sağlam düşüncədən çox kənar olduğunu bildirir. Müəllifə görə burada bir çox paradokslar var. Freydin super eqo konsepsiyası insanı "lazımdır" tiranlığından, keçmişin tiranlığından azad etməyə kömək etdi. Bununla belə, Freydin düşüncəsi təhsil almış müasir amerikalı qadınları köhnə bir imiclə zəncirləyən, seçimi və böyüməyi qadağan edən və onların fərdi şəxsiyyətini inkar edən yeni "lazımdır" tiranlığını iflic edən yeni bir super eqo yaratmağa kömək etdi.

Fridan iddia edir ki, Freydin qadınlarla bağlı fikirləri onun öz dövrü üçün müəyyən qədər keçərli ola bilər, lakin qadınlar Viktoriya dövründən bəri nisbətən inqilab etdikləri üçün indi qəti şəkildə qəbul oluna bilməz. Freydin gözlədiyi şey, özünü evdə hərəkətsizliklə məhdudlaşdıran, atasına və ərinə xidmət etmək, uşaq dünyaya gətirmək və bu həyatdan xoşbəxt olmaqdan razı qalan qadın stereotipi idi. Bununla belə, Freydin fikrincə, qadınların bütün passivliyinə baxmayaraq, onlar hələ də kişiləri fallusları olmadığı üçün həsəd aparırlar və bunu qısqanırlar. Bu, Freydin psixoanalizində "fallus qısqanclığı" kimi işlənmişdir. Betti Fridan bir daha bu hissi və ya konsepsiyanı rədd edir, çünki o, qadını kölə etmək və onun kişilərdən bioloji aşağılığını müdafiə etmək üçün başqa bir taktika kimi istifadə edildiyini iddia edir.

Feminizmin ikinci mərhələsindən başlayaraq, Freydin “fallus qısqanclığı” iddiası əksər feministlər üçün daimi tənqid nöqtəsi olmağa başladı. Onun üstünlük və qüdrət əlaməti olaraq fallusu mərkəzləşdirməsi, digər tərəfdən isə qadınları bir eşq xanımı və baxıcı kimi qəbul etməsi nəzəriyyəçilərin indidə tənqid nöqtəsi kimi qalmaqdadır. Freydin nəzəriyyələrini dekonstruksiya etmək üçün feministlər sübut etməyə çalışdılar ki, Freydin təklif etdiyi gender fərqləri patriarxal ənənənin nəticəsidir. Mitşelə görə “ qadın dünyanın zəhmətlərindən və problemlərindən uzaq, mülayim və şirin qalmalıdır; ər çörək qazanan, ev təsərrüfatının başçısı olmalıdır” [20, s. 321]

Özünə məxsus otaq tələbi ilə hüquq axtarışına başlayan feminist hərəkatı Freyd və onun nəzəriyyələri ilə öz orbitini tapdı. Baxmayaraq ki, 1900-cu illərdə feminist hərəkatının intibahı Freydin nəzəriyyəsi və qadınlara münasibəti ilə bağlı mübahisələrlə alovlandı.. [28 s. 14]

1980-ci illərin sonunda ortaya çıxan feminist hərəkat üçüncü dalğa feminizm adlanır. İkinci dalğa feminizm üçüncü dalğa feminizminin davamı olsa da, əvvəlki hərəkatlarla müqayisədə bəzi fərqləri ortaya çıxarmışdır. Öncəki feministlərin tez-tez cinsi ayrı-seçkiliyə diqqət yetirdiyini düşünən üçüncü dalğa qadın hərəkatının müdafiəçiləri, cinsi ayrı-seçkiliyə yönəlmiş bir feminizmin sinif fərqlərini və irqi ayrı-seçkiliyi görməməzlikdən gəldiyini vurğuladılar. [31 s. 162] Bu səbəbdən fərqli etnik mənsubiyyətlərə və cinsi üstünlüklərə, sinif fərqlərinə müraciət edərək qadın problemlərinin müxtəlifliyinə diqqət yetirən bir perspektivi analiz etməyə çalışdılar.

Üçüncü dalğa feminist hərəkatı universal deyil, oxşarlıq əvəzinə fərqlilik və fərqli kimlikləri vurğuladı. Qeyri-Qərb cəmiyyətlərində qadın problemlərini anlamaq üçün belə bir perspektivin yetərli olmadığını irəli sürən üçüncü dalğa feministləri, hər cəmiyyətdə qadın problemlərinin fərqli olacağını nəzərə alaraq, universal perspektiv əvəzinə yerli problemlərə yönəlmiş bir perspektiv inkişaf etdirməyə başladılar. Buna görə də ikinci dalğa feminist qavrayışın mütləq bərabərliyi müdafiə etdiyini, üçüncü dalğa feminist qavrayışın isə fərqlilikləri vurğulayan bir diskurs inkişaf etdirdiyini söyləmək mümkündür.

Freydin iddiaları ikinci dalğa feministlərinin güclü tənqidi ilə qarşılaşdığı kimi, qadın yazıçılar Jak Lakanın “phallus”u işarə kimi gördüyü psixoanaltik yanaşmasına hücum etməklə davam etdilər. Buna görə də, Lakanın fallus mərkəzli diskursu feminist ədəbiyyat tənqidçiləri üçün güclü təsir və etiraza səbəb olmuşdur. Lakana görə, Freydin fallusu kainatın mərkəzinə çəkməsi və qadınların penisdən məhrum olmasına paxıllıq etməsi ideyası bir fenomendir, çünki fallusun özü kimə məxsus olursa olsun, güc əlamətidir.

Lakan nəzəriyyələrini Freydin Edip kompleksi nəzəriyyəsi üzərində qurdu. O, şəxsiyyətin qurulmuş bir şey olduğuna inanırdı; əvvəlcə xəyali mərhələdən güzgü mərhələsinə, sonra isə güzgü mərhələsindən simvolik mərhələyə keçir. O, dilin şəxsiyyətin qurulmasında çox vacib olduğunu müdafiə etdi. Kişi və ya qadın mövzusunda konkret bir ayırım etməsə belə, Lakan insan təcrübəsində hər addımı fallusun mövcudluğu ilə əsaslandırırdı. Bu yanaşma həm feministlərin, həm də konstruktivistlərin reaksiyasına səbəb oldu, çünki o, fallosentrizmi təbliğ edirdi.

Freydçi/Lakançı fallus müddəasına qarşı müxalif olan Yudis Qardinerin qadınların potensialını üzə çıxarmadan onları fiziki olaraq mühakimə etməyin qəti əleyhinə idi. Freydin fallus-mərkəzçilik müddəasını tənqid edərək o, qadın və kişilərin formalaşma dövründəki müxtəlifliklərini izah edirdi. O, iddia edir ki, identifikasiyanın yalnız fallusun mövcudluğu ilə məhdudlaşdırıldığı halda, qadınların formalaşması kişi şəxsiyyətinin statik formalaşmasından fərqli olaraq mütərəqqi xarakter daşıyır. O, bildirir ki, qadının şəxsiyyətinin formalaşması müsbət, kişinin formalaşması isə mənfidir.

Qardiner qadının formalaşmasının niyə kişidən daha müsbət olduğuna dair nəzəriyyəsini dəstəkləmək üçün iddia edir ki, kişi kimliyi ilk başda onun ilk baxıcısı olan anasından fərqli olaraq formalaşmağa başlayır. Oğlan uşaqları fərqli olduğunu anlayanda bundan mənfi şəkildə təsirlənir. Kişilər, şəxsiyyətinin formalaşması prosesini bitirmək üçün atasının roluna nail olmalı olduğunu düşünür. Ona görə də oğlanların formalaşması daha çox konflikt şəraitində baş verdiyi üçün neqativ şəkildə inkişaf edir. Halbuki, qız uşağında, mənliyin formalaşması birdən-birə dayanmadığı

üçün proses bitməyən forma alır və qızlardan həyatlarına başladığı andan anasının vəzifələrini üzərinə götürməsini tələb edən mütərəqqi bir proses yaranır.

Qardiner, qadın ədəbiyyatını təşviq etmək üçün qadınların patriarxal dünyada söz sahibi olmaq mövzusunda ruhsuzluğuna son qoymağı hədəfləyir. O, qadınların daha üstün mövqedə olduqlarını və bundan sonra daha çox yazmalı olduqlarını sübut etməyə çalışır. Siksusun yazılarında da "qadın ədəbiyyat" ehtirası aydın görünür. Helen Siksus daha çox "qadınlar özləri haqqında yazmalıdır, qadınlar qadınlar haqqında yazmalı və qadınları yazıya gətirməlidir, qadın özünü mətnə - dünyaya və tarixə - həsr etməlidir" inancını müdafiə edir. [13, s. 875]

Binar oppozisiyalar arasındakı çəkişmələr və bundan dolayı yaranan problemlər Siksus yaradıcılığının əsas mərkəzi hesab olunur. O bildirir ki, kişilər və qadınlar arasındakı problem gecə-gündüz, güclü-zəif mübarizəsini xatırladır. Bu çəkişmələr arasında həmişə qalib kişi olduğu üçün qadınlar həmişə uduzan və ya aşağı tərəfdə hesab olunurlar. Ona görə qadınlara qarşı ən böyük pisliyi kişilər edib. Hiyləgərcəsinə, zorakılıqla onları qadınlara nifrət etməyə, özlərinə düşmən olmağa, hədsiz güclərini özlərinə qarşı səfərbər etməyə sövq etmişlər. Qadınlar üçün antinarsisizm yaradıblar!

Şoşana Felmanın Qadın və Dəlilik: Tənqidi Fallasiya əsəri güc və ya üstünlük məsələsinin orqan olan fallusun mövcudluğu tərəfindən təyin edildiyi dövrdən bu yana cəmiyyətin içində olduğu "fallasiyanı (phallacy)" və ya sözün əsl mənasında "yanlışlığı (fallacy)" üzə çıxaran böyük bir ədəbiyyat parçasıdır. Felman uzun müddətdir qadınların ədəbiyyat sahəsində qış yuxusuna getdiyini düşünür və onları yazmağa cəsarətləndirirdi. O, qadınların ədəbiyyatda özünəməxsus üsluba və kimliyə sahib ola biləcək yazı tərzinin zəruriliyini vurğulayır və bundan əlavə, o, hər hadisəni kişiyə xas düşüncə tərzi ilə qəbul edib şərh edənləri tənqid edir.

O, Onore Balzakın "Adieu" adlı qısa hekayəsini misal gətirir. Felman hekayədəki şərhlərin və düşüncələrin yalnız kişi xarakterlərinin düşüncəsi ətrafında cəmlənməsini lakin faktiki hekayənin bir qadın haqqında olduğunu tənqid edir. Felmana görə qadınları patriarxal cəmiyyətin normalarından xilas etməyin yolu onlara bu vəziyyətdən qaçmağın yollarını öyrətməklə başlayır. Kişilər tərəfindən

qoyulan sosial məhdudiyyətlər əslində qadınlara qoyulan düşüncə və zehni məhdudiyyətlərə bənzəyir. Bu səbəb ilə qadınlar özlərini həqiqi sərhədlərindən azad etmək üçün ilk olaraq düşüncə sərhədlərini aradan qaldırmaldır.

Elen Şouvalter ənənəvi baxış bucağını  tənqid edirdi. Buna görə də Şouvalter, feminist tənqidin izləyəcəyi yeni yolu müəyyən etmək üçün "ginokritlər" terminini istifadə etdi. Eleyn Şoulterin “ginokritisizm” terminin tərifində, qadın ədəbiyyatı tarixini üç mərhələyə bölmək təklifinin təsiri olaraq “feminist və ya feminizm” sözlərindən istifadə etmədi və ona görə burada ən yüksək mərhələ “qadın ədəbiyyatı” adlandırılır. Şoulter bu tarixinin birinci mərhələsini - qadınların kişilərin intellektual və ədəbi nailiyyətlərinə bərabər olmaq və qadın təbiəti haqqında yazdıqları dövr kimi “qadınsı”(feminine) kimi təsvir edir. İkinci mərhələ isə feminist dövrü adlanır ki, burada qadınların kişilər tərəfindən müəyyən edilmiş dəyər və prinsiplərə qarşı çıxdığı və kişilərlə eyni hüquq və dəyərlərə sahib olmaq üçün azadlıq tələb etdiyi mərhələdir. Üçüncü və ən inqilabi mərhələ isə “Qadın” mərhələsidir. Showalter iddia edir ki, Qadın mərhələsində qadın özünü kəşf edir və kişi yazı standartlarını təqlid etmək əvəzinə, rədd edərək müstəqil şəkildə yeni forma və  yazı üsullar yaradır .

Gender problemi və qadınların yaşadıqları uğursuzluqlar 1990-cu illərə qədər eyni qaldı. Günümüzün ən nüfuzlu feminist nəzəriyyəçisi hesab edilən Yudis Batler “Gender problemi” kitabını yazdı. Batlerin fikrincə, qadınları və qadınların cəmiyyət tərəfindən tələb olunan sosial şəkildə qurulmuş kodlar reallığı təqdim etmir, ona görə də onlar sadəcə yalan və illüziyadan ibarətdir. Kitabda Batler qəbul edilmiş universal qadın və ya kişi anlayışını rədd edir. Batler üçün bir insan həmişə müəyyən kimliklər və ya cinslər arasında səyahət edə bilər: o, gey, lezbiyan, kişi, qadın, yəhudi və ya amerikalı ola bilər və ya eyni anda hamısı ola bilər. Bu səbəbdən kimisə qadın kimi qəbul etmək onun bütün xüsusiyyətlərini açıqlamaq imkan vermir və ya bu onun sadəcə qadın olması demək deyil.. [12 s. 522]

## 1.2 Modernizm və Virciniya Vulf yaradıcılığı

XIX əsrin sonu və XX əsrin başlanğıcını Böyük Britaniyada yeni bir ədəbiyyatın doğulması kimi qeyd edirik. Tədqiqatçılara görə XX əsrin birinci yarısı olduqca fərqli və zəngin bir dövr hesab edilir – Edvardian dövründə İngiltərə 1901-ci ildən 1910-cu ilə qədər inkişaf etməyə və çiçəklənməyə başladı, lakin ardınca Birinci və İkinci Dünya Müharibələrinin çətin dövrləri başladı və Britaniya İmperiyasının tənəzzül etdiyi zamanda ingilis dilində ədəbiyyatının yenidən doğulması baş verdi. Ədəbiyyat siyasi, iqtisadi və sosial çətinliklərlə üzləşmiş və eyni zamanda bu dövr modernist ədəbiyyat adlı yeni ədəbiyyatın yaranmasına şahidlik etmişdir.

Bu dövrdə müasirlərin tamamilə bağlı olduqları yeganə dəyər olan sənətə qarşı inanılmaz bir inanc və sevgi hissi var idi. Modernizm dövründə yazılan bəzi əsərlər hətta bəzən müəyyən qədər keçmişdən asılı qalsalar belə, onlar bir dəyişimə ümid edir və inkişaf etməyə davam edirdilər. Modernistlər roman yazarkən tarixin və ya personajın yaşadığı hadisələrin xronoloji ardıcıllığına əhəmiyyət vermir və romanda müəyyən bir sinxronluq yaradan metaforalardan, simvollardan və təsvirlərdən istifadə edirlər və ona görə də qeyd etmək olar ki: "simvolizm və ya təxəyyül modernist üslubun əsasını təşkil edirdi ." [10 s.50] Modernist yazıçılar təxəyyüldən əsasən gerçəkliyi ifadə etmək üçün istifadə edirdilər.

Bir çox müasir feministlər üçün modernizm qadınlara qarşı müsbət bir hərəkat olaraq tarixə keçən tamamilə, qadına, androgenlik anlayışına, patriarxal dekonstruksiyaya qarşı açıq bir hərəkat kimi qəbul edilirdi. Modernizm sinfi fərqlilikləri, gender problemini, təhsil uğrunda mübarizəni, dövrün mənasızlığı və yadlaşması məsələlərini özündə əhatə edirdi. Modernizm qadınların nəinki iştirak etdiyi, həm də baş rolları üstləndiyi yeni antihegemonik imkanlar təklif edilən dövrdür və modernist roman qadınların səsini bərpa etmək potensialını açıq şəkildə ortaya qoyur. O, 1910-cu ildə Virciniya Vulfun dediyi kimi, insanlığın necə dəyişməsi ilə bağlı məsələləri özündə ehtiva edir və bəsitlikdən kənara çıxmaq naminə hətta pozulmağı və dəyişimi qəbul edir.

Gender problemi cəmiyyətdə müzakirə olunduğu kimi ədəbiyyatda da əsas mövzulardan biri olub, məhz ona görə də təbii olaraq, gender problemi modernist hərəkatın əsas diqqət mərkəzinə çevrilib. Qadınlar, onların mübarizələri və mühakimələri patriarxal cəmiyyət tərəfindən həmişə nifrətlə qarşılanmışdır. Qadınlar azad bir fərd kimi deyil, həyatlarını sadəcə kişilərin köməyi ilə tamamlayan fərdlər kimi qəbul görmüşdür. Lakin müasir ədəbiyyata qədər qadınlar zəif, itaətkar və axmaq kimi təsvir edilirdi. Əksər müəlliflər illərdir qadınların həmişə kişilərdən aşağı olması kimi yanlış təsəvvürlə yazmağa meyl göstərdilər. Lakin modernizm klassik realizmlə bilavasitə əlaqəli olan bilmək və mühakimə etməyə meydan oxudu və əslində hər bir şeyin sadəcə sabit bir şey olmadığı, şüurun şüursuzluğu əhatə etdiyi, həqiqi gerçəkliyin sırf sadiq təqlidi kimi normallaşdırıldığı və faktın ənənəvi əsaslarının olduğu bir dünyada bu dəyərlər ciddi şəkildə sarsıdılmış, realizm anlayışı kəskin şəkildə zərər görmüşdü.

Dağıdılmış avtoritet anlayışı modernist qadın yazıçılar üçün xüsusilə iki tərəfli idi. Bir tərəfdən, Corc Eliot və daha sonrakı nümayəndələr tərəfindən tam şəkildə mənimsənildiyi kimi açıq-aşkar şişirdilmiş təsvir formaları (qismən, bəlkə də, bu səbəbdən) bir ədəbi tərz kimi artıq arzuolunan deyildi; qadın yazıçılar, avtoritet və kanoniklik arasında seçim etməli olacaqdılar. Digər tərəfdən, modernizm heç vaxt əhəmiyyətli dərəcədə feminizasiya edilməmiş realist hakimiyyətin dekonstruksiyası antihegemonik təsvirlər və qadın subyektivliyinin konstruksiyaları üçün imkanlar yaratdı.

Virciniya Vulf bədii ədəbiyyatda üstünlük təşkil edən klassik yazı üslubunu rədd edən qeyri-konformist yazarlardan biri olaraq qəbul edilir. Modernizm, realizm və naturalizmin təfərrüatlı təsvirləri və dünyanın vizual şəkildə qavrayışının həddən artıq qiymətləndirilməsini geniş şəkildə tənqid edilir. Vulfa görə, yazarlar əslində səthi olan hadisələrin dəqiq təsvirinə diqqət yetirərək, həyatın əsas mahiyyətini gözdən qaçırırlar.

Vulf, digər modernist yazıçılar kimi təfərrüatlı təsvirlərin əsərlərə zənginlik və orijinallıq qatdığı düşüncəsini qəbul etmir və nəticə olaraq modernistlər yeni anlayışları ifadə etmək üçün yeni yazı texnikaları arayışına başladılar. “V.Vulf öz

düşüncələrini realizmin sərt qaydalarından imtina etməklə ifadə edirdi. O, Qolsuorsi, Uells, Bennet kimi realist yazıçıları materialist adlandırır, Coys, Eliot, Lourens kimi spiritualistlər adlandırdığı modernistlərlə müqayisə edirdi. ” [7 s123]

Diqqət edəcəyimiz digər məqam isə Virciniya Vulfun yazılarında qeyd etidiyi müasir roman haqqında fikirləridir. Virciniya üstəlik Vulf XX əsrin əvvəllərində Britaniyada geniş yayılan yazı tərzindəm məmnun deyildi. O, Arnold Bennett, H.G. Uells və Con Galsvorsi kimi yazıçıların insanların həyatından daha çox hadisələrən danışmasını tənqid edirdi. 1925-ci ildə nəşr olunan "Modern fiction" essesində o, bu tip yazıçıların önəmsiz və keçici hadisələri təsvir etmək üçün möhtəşəm bir bacarıq və zəhmət tələb etdiklərini iddia edir.

Vulf kitabında ədəbiyyatda heç bir məhdudiyyətin olmadığını və hər hansısa metod, və ya təcrübənin sadəcə uydurulmuş yalan və iddia olduğunu vurğulayır və bədii ədəbiyyatda lazımi şeylərin mövcudluğunu rədd edərək əslində hər şeyin sadəcə hiss və düşüncənin, beynin və ruhun ifadə olduğunu qəbul edir.

"Keçmişin eskizi" adlı yarımçıq kitabında Vulf özünü var olduğu xatiələrindən danışır. O elə bir nəticəyə gəlir ki, yaşanmış təcrübələr mövcud olduğumuz və olmadığımız xatirələrəbölünür. Mövcudluq həyatda yaddaqalan, zehnində qalıcı iz buraxan və asanlıqla və hətta qeyri-ixtiyari olaraq xatırlana bilən xatirələrdir. Mövcudluq kimi adlandırdığımız xatirələrin digərlərindən fərqi,hadisələrdən daha çox emosiyalar üzərində qurulmasıdır. Lakin həyatın çox hissəsi bu barədə düşünmədən keçir. Vulfun izah etdiyi kimi, xatirələrimiz bir növ qeyri-adi pambıq yununun içərisindədir. Günümüzün böyük bir hissəsi şüurlu şəkildə yaşanmır. İnsan sadəcə gəzir, yeyir, görür, görüləcək işlərlə məşğul olur .

Modernizm bədii bir cərəyan olaraq müxtəlif sənət növlərini də özündə birləşdirir. Lakin bu dövrün xüsusi maraq dairəsi isə modernist romandır, çünki janr kimi roman XX əsrin əvvəllərində köklü dəyişikliklərə məruz qalmışdır. Qeyd etdiyimiz kimi Vulf bu janrın inkişafına önəmli töhfələr vermiş, digər modernist müəlliflərlə birlikdə realist romanı müəyyən edilən sərt normaların yükündən azad edə bilmişdir. Onlar romanı yenilikçi yazı üsulları ilə zənginləşdirdilər və indiyə qədər yalnız az və əsasən poeziyada istifadə olunan ədəbi vasitələri təqdim etdilər.

Bu dəyişikliklər təkcə formaya yox məzmuna da öz təsirirni göstərdi və bu özlüyündə modernist romana yeni mövzular gətirdi. Tabu hesab edilən mövzuların işlənməsi və ya ən azı sərt sosial normaların sorğulanması, Freyd psixologiyasından dərin şəkildə təsirlənən bir insanın daxili həyatına diqqət yetirmək, böyük cəmiyyətlərdə yaşayan insanların bir-birinə qarşı yadlaşmasını vurğulamaq - bu meyllər modernist romanın ana xəttini təşkil etməyə başladı. Bu tendensiyanın ardınca Vulf rahat şəkildə gender, feminizm, homoseksuallıq, intihar meylləri və sosial siyasətin, Birləşmiş Krallığın hərbi və siyasi strategiyalarının açıq tənqidi kimi mübahisəli mövzuları təqdim etdi. "Modernist yazarlar üçün xaosun bədii mənimsənilməsinin, ve ya abstrakta çevrilməsinin tipik əzəli-epik vasitəsinin mif yaratmaqda görən Y.M.Meletinski XX əsr mifologizmi haqqında fikirlərini ifadə edir. " [6 ,s 46]

Modernizm klassik dilin xüsusiyyətlərinin, bəzən ideyanın tam mənasını çatdıra bilmədiyini göz önünə gətirir. Nəzərdə tutulan məzmunu doğru şəkildə təsvir etmək üçün modernist yazıçılar insan şüurunda fəaliyyət göstərən daxili prosesləri ifadə etmək üçün şüur axınından istifadə etməyə başladılar. Daxili monoloq adlandırdığımız bu üsul Virciniya Vulfun yaradıcılığında önəmli yer tutur. O, personajlarının düşüncələri vasitəsilə bütün məlumatları süzür və bu yazı üslubu hekayənin danışanını tam şəkildə əvəz edə bildi və bu təsvir personajın hissləri, assosiasiyaları, mülahizələri, ideyaları, həyat və zaman haqqında daxili təsəvvürləri ilə daha çox zənginləşdi. "Modernist romanların digər xüsusiyyəti isə yadlaşmış insanı kitabların mərkəzinə qoymaqdır və müasir yazarlar insanın bu dünyada özünə müəyyən yer tapması hissini açıq şəkildə ifadə edirdilər. " [5 s180 ]

Modernizmin kosmopolit olması onun əsas xüsusiyyətlərindən biri idi. Çünki bu cərəyan dünyanın hər yerindən olan müəllifləri və əsərləri özündə tam şəkildə ehtiva edir. Lakin onun formaları dövrə, siyasi sistemə və ya ölkəyə görə dəyişir. Bəzi ölkələrdə modernizmin təsiri yalnız müvəqqəti idi, lakin modernizmin təsiri Böyük Britaniya, Amerika Birləşmiş Ştatları və Kanada kimi ölkələrdə heç vaxt həqiqətən sonlanmadı.

Virciniya Vulf ənənəvi üslub ilə müqayisədə qeyri-adi hesab olunan şüur axını yazı tərzini romanınlarında yeni bir termin kimi əlavə edən məşhur İngilis yazıçısıdır. XX əsrin əvvəllərində o, şüur axınını öz romanlarında Ceyms Coysun istifadə etdiyi üsuldan fərqli olaraq, özünəməxsus şəkildə tətbiq etməklə fərqləndi. Coysun yanaşması dünyanı hərtərəfli əhatə etməyə cəhd etmək idi. Lakin Vulf isə gündəlik həyatın xaosunu nizama salmaq üçün lazım olan məlumatı xüsusi şəkildə seçirdi və onun bu seçim üçün yeganə meyarı sırf estetika idi.

Tənqdiçilərin fikrincə, Ceyms Coysun mətnləri ilə müqayisədə Vulfun nəsri klassik mənada poetik xüsusiyyət daşıyır, Coys isə küçələrdə böyüməsi səbəbilə Uliss kitabında daha kobud dildən istifadə edirdi və Coys üçün dil özlüyündə sadəcə bir alət idi. O, bütün növ cümlələrdən, uzun və qısa dialoqlardan istifadə edirdi, fransız və latın dilində söz və ifadələri, mənasız təkrarlanan sözləri, mahnının notlarını kitabına daxil edirdi. Coys açıq-aydın şəkildə ənənəvi yazı tərzini radikal şəkildə dəyişmək istəyirdi, halbuki Virciniya Vulf, Dibattistanın qeyd etdiyi kimi, dildən mühafizəkar formada istifadə edirdi, çünki o, Coysdan fərqli olaraq, heç vaxt yazının zahiri forması ilə oynamadı.

Vulfun personajlara qarşı fərqli yanaşması onun romanlarının quruluşu və zaman ideyası ilə sıx bağlıdır. Bu Marsel Prustun kitablarında vurğuladığı yaddaş anlayışına bənzəyir. Hər hansısa bir səs, qoxu və ya hər hansı bir kiçik hadisə personajın yaddaşını işə sala bilər və hekayəmiz bu vəziyyətə uyğun  zamana görə dəyişir. Biz bu üsulu Xanım Dallovey əsərində açıq aydın görə bilərik çünki kitabın süjeti bir gün ərzində cərəyan edir, lakin oxucular xatirələr vasitəsilə personajların keçmişi haqqında çox şey öyrənirlər. Romanın lap əvvəlində xanım Dallovey gəzərkən hava ilə gəncliyini xatırlayır və bu faktor zamanda dəyişimlərə gətirib çıxarır.

O, emosiyaları, subyektiv mövzuları fərqli formada çatdırmaqla digər modernist yazıçılardan fərqlənirdi. Modernist yazıçı olan Vulf ənənəvi reallığa son qoymağın daha doğru olduğunu düşünürdü. Məhz buna görə o, əsərlərində yeni üsullar sınayırdı. Virciniya Vulfun həyatı və yaradıcılığı məşhur ingilis ziyalıları və rəssamlarının iştirak etdiyi layihə olan Blumsberi Qrup ilə ayrılmaz şəkildə bağlıdır.

Blumsberi Qrupun nailiyyətləri arasında Britaniya modernizminin inkişafına verdikləri töhfələr, gənc rəssamlara dəstək və həvəsləndirmə, müasir bədii ədəbiyyatın nəşri və ictimai müzakirəyə tabu mövzularının təqdim edilməsi açıq şəkildə aiddir.

Vulfa görə ənənəvi reallıq həyatın gerçəkliyini əks etdirmir. Bu, süni şəkildə yaradılmış təsvir formasıdır, çünki reallıq nisbi anlayışdır və insandan insana dəyişir. Onun məqsədi xarici gerçəkliklə məşğul olmaq əvəzinə duyğuları, hissləri, istəkləri və ehtirasları əks etdirməkdir. Vulf realist yazarların düşüncələrinə qarşı çıxır və məqalələrinin birində belə deyir: "Əgər yazıçı qul yox, azad insan olsaydı, əgər o, lazım olanı deyil, istədiklərini yaza bilsəydi, əsərini normalara uyğun deyil, öz hissləri üzərində qura bilsəydi, nə süjet, nə komediya, nə faciə, nə də sevgi olmazdı." [40 s.66]

Virciniya Vulf patriarxal cəmiyyətin əsrlər boyu təbii olaraq göstərdiyi siyasi, mədəni və əxlaqi dəyərləri rədd edir və onlara qarşı çıxır. Qeyd etdiyimiz kimi yazı üslubuna münasibəti ilə öz dövrünün digər yazıçılarından fərqlənir. O, kitablarını təbliğat vasitəsi kimi yazmır, ictimai-siyasi məsələlərə münasibətini bildirmək üçün yazır. Cəmiyyətin əsl həqiqətlərini oxuculara çatdırmağa çalışır. Oxucular onun əsərlərindəki müxtəlif personajların həyatlarından təsirlənir və Virciniya Vulf xüsusilə qadın oxuyucularını personajlarının köməyi ilə maarifləndirməyi qarşısına məqsəd olaraq qoyur. O, ətrafdakı baş verən hadisələrlə dərindən maraqlanırdı, həssaslıqla yanaşır və həmin hadisələrdən təsirlənirdi. O, hisslərini, düşüncələrini və şərhlərini hekayələrində, romanlarında, gündəliklərində, məktublarında və müzakirələrində əks etdirirdi. [39, s.63]

Öz dövrünün ən vacib tənqidçilərindən hesab olunan Virciniya Vulf 1882-ci ildə Viktorian mühitində doğulmuş və yetişdirilmişdir. 19-cu əsr ingilis ədəbiyyatı və dünya ədəbiyyatında müasir ədəbiyyatın klassik nümunələrini yaratmaqla yanaşı, ədəbiyyatda qadının mövqeyini möhkəmləndirmişdir. Dövrünün və ənənəvi quruluşun bütün normalarını rədd edir və əsərlərinin böyük bir qismində qadının sosioloji durumu haqqında məsələləri ön plana çıxarmaqla ideal bir dünya təsvir edir. Bununla yanaşı yazar özünün erkən esselərində qadınların bədii ədəbiyyatda tutduğu

mövqeyi məsələsinə diqqəti çəkir, onlara misoygnist cəmiyyətdə sağ qalmaları üçün yol göstərməyə davam edirdi. Virciniya Vulfun bədii nəsrinin və elmi işlərinin əsas ideyası qadınların maliyyə azadlıqlarının əllərindən alınması və bunun da birbaşa onların məqsəd və ideallarına çatmasında aciz hala çevrilmələrinə təsiridir.

Vulfun feminist estetikası patriarxal ideologiyanın əsas elementləri hesab olunan sabitlik və əminlik duyğusuna meydan oxuması üzərinə qurulub. Vulf cins anlayışını yenidən konfiqurasiya etməyin yolları üzərində dayanaraq, cins və bədən anlayışı haqqında heteronormativ qavrayışları aradan qaldırmağa çalışırdı. Əsərlərindəki personajlara, xüsusilə qadınlara liminal məkan yaradaraq onlara patriarxal cəmiyyətin sərt normalarına qarşı çıxa bilmək şansı yaradır və nəticə etibarilə bu liminal məkan və dünyanın karnaval şəkildə qavranılması Vulfun obrazlarına həmin ideologiyanın söykəndiyi əminlik və sabitlik duyğusunu pozmaq imkanı verir.

Sosial dünyadakı dəyişikliklər qadınların da həyatlarında dəyişimlərə səbəb oldu. 19-cu əsrin ortalarında dünyanı yeni gender ideologiyası bürüdü. Hüquq və sosial ədalət kimi fikirlər genişləndikcə qadınlar haqqında fikirlər daralmağa başlayaraq -qadınlar korsetləri kimi sıx və sərt məişət rollarına məcbur edilirdi fikri ilə alovlanmağa başladı. [ 9, s.65 ] Qadınların həyatındakı dəyişikliklər ilə sosial və siyasi arenadakı dəyişikliklər arasında bağlantı bariz görünürdü. Qadının yerinin evinin olması düşüncəsinin ortaya çıxmasının səbəbi dominant ideologiyanı formalaşdıran orta təbəqənin inkişafı ilə bilavasitə əlaqəli idi. Başqa sözlə desək, orta təbəqəyə məxsus olan qadınların vəzifəsi evdə işləmək və ailəsinin qayğısına qalmaq və bu ideologiyanı gələcək nəsillərə daşıya biləcək övladlar dünyaya gətirməklə orta təbəqənin sabit ideoloji konstruksiyasını gücləndirməyə kömək etmək idi.

Dünyanın yaradılışından başlayaraq əsrlərdir qadınlar özlərinə aid olunan mifləşdirilmiş "ilahə", "ana", "mələk" obrazlarının daşıdıqları xüsusiyyətləri ilə və bu obrazların qurbanı olaraq müzakirə olunublar. Ədəbiyyat bu mələkləri evdə məsuliyyətlərini və məyusluqlarını stoisizmlə qəbul edən kimi təqdim edirdi. Virciniya Vulf sosial və siyasi məsələlərin gender əsaslı kateqoriyalara bölünməsinə etiraz edirdi və bədii nəsrinin əsasında kişi/qadın dixotomiyasının arxasında duran səbəbləri araşdırmaq dururdu. Kişi hökmranlığı və qadına xas basdırılmış qəzəb və

boyun əymənin psixoloji və iqtisadi səbəblərinin öyrənilməsi yazarın yaradıcılığında mühim yer tutur.

Azadlıq mövzusunun əsas mərkəzi ideya olduğu Virciniya Vulf yaradıcılığı və "Yeni Qadın" - "New Woman" konsepsiya ilə tanınan Sufrajistlər hərəkatı ortaq məqsədlərə xidmət edirdi. Yaradıcılığının erkən dövrlərində qələmə aldığı "Gecə və Gündüz" - "Night and Day" (1919), "Yaqubun otağı" - "Jacob`s Room" (1922) və "İllər" - "The Years (1937) daxil olmaqla, esselərində və "Özünə aid bir otaq" - "Room of One's Own" (1929) və "Üç Qvineya" - "Three Guineas" (1938) adlı kitablarında sufrajistlər hərəkatının ideyalarını görə bilərik. Sufrajistlər hərəkatı 20-ci əsr Britaniya tarixində Emelin Pankhurst rəhbərliyi ilə qadınlara seçki hüququnun verilməsini tələb edən aktivistlər idi. Vulfun kitablarında seçki hüququ və sosial reform mövzusunun işlənməsi aşkar izlənilir və qadınların siyasi və sosial hüquqlarının müdafiəsinə olan bağlılığı apolitik olduğu iddialarını yıxır.(4)

Virciniya Vulf bədii və qeyri-bədii əsərlərində seçki hüququ haqqında yazsa da, tez-tez seçki hüququ hərəkatına meydan oxuyur. O, davamlı olaraq həm hərəkatdakı fərdlər, həm də bu hərəkatın arxasında duran daha böyük dəyərlər sistemi haqqında tez-tez qeyri əminliyini ifadə edirdi. Onun məktublarında və gündəliklərində "qeyri-adi danışıq tərzləri" və "köhnə paltarları" ilə sufrajistlər istehza ilə təsvir edilirdilər. [29 s120]

Adətən 1920-ci illər modernizmin kulminasiya dövrü adlanan dövr ədəbi modernizmdə mühüm onillik hesab olunurdu. Virciniya Vulf da modernist əsərlərinin əksəriyyətini məhz həmin onillikdə yazıb. Onun bir çox kitabları, xüsusən də Özünə aid otaq (1929) və Üç Qvineya (1938) müasir feminist nəzəriyyəni ilhamlandırıb və bu gün ədəbi tənqiddə həmin kitabdlardan tez-tez sitat gətirilir. O, həmçinin bu dövrdə "Modern Fiction" (1919) adlı bir esse yazdı və bu, modernizmin erkən nəzəriyyəsi kimi qəbul edilə bilərdi, baxmayaraq ki, Vulf özü sərt nəzəriyyələrə, qapalı sistemlərə qarşı idi.

O, həmçinin seçki kampaniyalarının effektivliyinə və qanuniliyinə etiraz etdi. Yaqubun otağı və Üç Qvineya əsərlərində Vulf seçki hüququ və siyasi islahatları deyil, iqtisadi imkanlar haqqında danışır. Vulf özünün kitablarında qadınların iqtisadi

güclərini birləşdirməsinin tərəfdarı idi. O, seçki hüququnun bu islahata kömək etmək üçün kifayət qədər gücə malik olub-olmadığını sorğulayır və onu da qeyd etmək lazımdır ki, Vulfun seçki hüququna olan tutumu nə qədər ümid verici olsa da, bir o qədər narahatlıq dolu idi.

Ona görə qadınlar üçün birinci prioritet iqtisadi bağımsızlıq və ikinci məsələ isə siyasi arenada qadınlar üçün vətəndaş hüququnu təmin edən seçki hüququ olmalı idi. Mübarizə, mübahisə və məyusluqla keçən sufrajistlərin tarixi Vulfu özünün ictimai cavabında səssiz qalmağa vadar etmişdi və məhz bununla əlaqəli olaraq, hərəkata qarşı ümidlərini "Özünə aid bir otaq" və "Üç Qvineya" kitablarına inteqrasiya etməyin yollarını axtarmağa başladı. "Virciniya  Vulfun modernist düşüncə tərzi onun yaradıcılığının fərqliliyini nümayiş etdirir. "  [2.s94]

Vulfun bu xüsusi ambivalentliyi onun feminizmini təsnif etməyi çətinləşdirir və bu haqqda Pamela Kofi "Feminist Woolf" əsərində yazır ki, bir yaradıcılıq kimi qəbul edilən Vulfun yazıları feminist yazıların tarixən tutduğu çoxsaylı istiqamətləri təmsil edir. Vulfu feminizmin hazır tərifinə uyğunlaşdırmaqdansa, biz onun yazılarının yeni yazıçılar və yeni tarixi şəraitin yarandıqca feminizmi təyin edən və müəyyən etməyə davam edəcək bir çox məsələləri diqqətli şəkildə gündəmə gətirdiyini görə bilərik.

Siyasi normaları və eləcə də cəmiyyətin normalarını qəbul etməyən Virciniya Vulf, kişilərin tiranlığına və eqoizminə qarşı çıxaraq, ideyalarının mərkəzinə təhsilə qoyulan məhdudiyyətlər, maneələr və qadınların təhsil fürsətinin rədd edilməsi və bu məhrumiyyətin yaradacağı boşluqları göz önünə gətirməyi planlayır. Maarifçilik dövrü olmasına baxmayaraq qadınların kitabxanalarda və universitetlərdə qarşılaşdığı çətinliklər dövrün xüsusiyyətlərinə zidd şəkildə inkişaf edirdi və bu dövrü xüsusilə qadın yazıçılar üçün kritik bir dövr kimi təhlil edə bilərik.

*"Lock up your libraries if you like, but there is no gate, no lock that you can set upon the freedom of my mind." [32, s.112]*

*(İstəyirsinizsə, kitabxanalarınızı bağlayın, amma düşüncə azadlığıma qoya biləcəyiniz heç bir qapı, qıfil yoxdur.)*

Virciniya Vulf qadınların öz düşüncələrini ifadə etmək şansı qazanmaları üçün təhsil almaq ideyasını müdafiə edirdi. O, "Özünə aid otaq" əsərində əsasən təhsilin

əhəmiyyəti, təhsil qarşısında məhdudiyyətlər və maneələr və qadınların təhsildən məhrum edilməsinə diqqət yetirmişdir:

*(Mən çəmənlik üzərində həddindən artıq sürətlə gəzdiyimi hiss etdim. Dərhal bir kişi məni tutmaq üçün ayağa qalxdı. Palto və köynəyində qəribə görünən bir şəxsin əl qol hərəkətlərinin məni hədəf aldığını ilk öncə anlamadım. Üzündə dəhşət və qəzəb hissi var idi. Ağıldan çox instinktim mənə kömək etdi; o nəzarətçi idi; Mən qadın idim. Bura çəmən idi; yol var idi. Buraya yalnız həmkarlar və alimlərə icazə var idi, mənim yerim çınqıl idi.) (32)*

Bu əsərdə əsərin baş qəhrəmanlarından biri olan Judith kitabxanaya daxil olmaq istəyəndə qadın olduğuna görə ona rəsmi icazə verilmir. Kişilərin yaxşı təhsil almaq imkanı və  inkişaf edə bildiyi halda, qadınlar kitabxanaya belə girə bilmirlər. Bu, o dövrdə qadınlara qarşı maneələri açıq şəkildə əks etdirən əhəmiyyətli bir səhnədir. Maarifçilik dövrü olmasına baxmayaraq, qadınların qarşılaşdığı çətinliklər dövrün xüsusiyyətlərindən olduqca fərqlidir. Kişilərin qadınların təhsil imkanı əldə etməsindən belə imtina etməsi onu göstərir ki, kişilər qadınları cəmiyyətdə ikinci dərəcəli bir fərd kimi, sanki kişilərin əlində qul kimi görürlər. Virciniya Vulf patriarxal cəmiyyətin illərdir yaratmış olduğu bütün dünya qadınlarının ümumi vəziyyətini əks etdirir.

Özünə aid bir otaq (1929) Virciniya Vulfun gender məsələlərinin işlənməsi baxımından ən vacib əsəri hesab olunur. Kitabının əsasında ölkəsinin patriarxal nizamını tənqid edərək qeyd edirdiki, bu dünyanın adi bir vətəndaşı belə xəbərdar olmaya bilməzdi ki İngiltərə patriarxal hakimiyyət altındadır deyə ifadə edir. Bununla belə Vulf hesab edirdi ki, cəmiyyətin və ənənəvi ideologiyanın əsas gücü qadınların aşağılıq duyğusunu mənimsəməsindən, özünküləşdirməsindən və ən əsası qadınların gözündəki kişi obrazından  qaynaqlanır. Qadınlar bütün bu əsrlər boyu kişi fiqurunu təbii ölçüsündən 2 dəfə böyük əks etdirən sehrli güzgü kimi xidmət etmişdir.

Özünə aid bir otaq  başlığının məqsədi sadəcə fiziki təcridi göstərmək deyil, qadınları məişət məsuliyyətlərindən azad olması, evin mələyi rolundan qaçmasına təşviq etməkdir. Qadınlar yazmağı səslərini eşitdirə biləcəkləri bir vasitə, ictimai sahələrə giriş üçün yol, xarici dünya ilə əlaqələrini daha möhkəm hala sala biləcəkləri

ideya kimi qəbul etməlidirlər. Kitabda qadınlara qarşı alçaldıcı davranışı tənqid edir və patriarxal cəmiyyətə qarşı düşüncələrinin əsas səbəbini təhsildə qadın-kişi bərabərsizliyinin bariz şəkildə büruzə edilməsində görür.

Özünə aid bir otaq Viktorian dövrünün və müasir dünyanın ən önəmli məsələləri olan təhsil, evlilik, kişilərin və qadınların cəmiyyətdə mövqeyi kimi məsələləri ehtiva edir. İngiltərədə qadınların səsvermə və seçilmək hüququnu qazandıqdan bir il sonra nəşr olunan kitab o vaxtdan feminist müzakirələrinin klassik nümunəsi olmuşdur. Ceyn Ostin və Şarlotta Brontedən başlayaraq, qadınlar niyə Hərb və Sülh yaza bilmirlər, Şekspirin xəyali bacısından tutmuş, bu gün də müzakirəsi davam edən qadın yoxsulluğu və namus mövzularına, hətta yaradıcılığın mahiyyətinə qədər enən Vulf, ədəbiyyat sahəsində də qadınlara çıxış yolu göstərir.

Ədəbiyyat və incəsənətlə məşğul olmaq üçün tələb olunan zəruriyyətlər əlavə edilərək, qadın yazıçıların ədəbiyyatda varlığı ön plana çəkilir və bununla birlikdə asudə vaxt, özəl həyat, sosial və siyasi azadlıq kimi nüansların əhəmiyyəti vurğulanır. Əgər qadınlar yazmağa başlayarsa, öncədən müəyyən edilmiş sabit dəyərləri dəyişmək istəyi yaranacaq ideyasını oxucuya başlıca prinsip olaraq çatdırmağa çalışır. Virciniya Vulfun feminist ideyalarında androgenlik anlayışı bariz görünür. O, iddia edir ki, qadınlar kişilərin nöqteyi-nəzərindən, eyni şəkildə qadın nöqteyi-nəzərindən yazmalıdırlar. Vulf formal təhsilin qadınlar üçün məcburi olduğunu düşünür.

Virciniyanın qadın hüquqlarının tapdalanması ilə bu qədər maraqlanmasının səbəblərindən biri də qadın olaraq özünün qadınlara tətbiq edilən təhsildə bərabərsizliyə məruz qalmasıdır. On səkkiz yaşı olanda ailəsində qardaşlarından fərqli olaraq ona Kembricə getmək şansı verilmədi. Təəssüf ki, hətta universitetlər də qadınları tələbə kimi qəbul etmirdilər. Onlara sadəcə kolleclərdə təhsil almaq hüququ tanınırdı. Həmin kolleclərdə təhsil və müəllimlər universitetlərdəki qədər yaxşı deyildi. O, digər qadınlardan daha şanslı idi, çünki atası savadlı idi və kitabxanası var idi və Vulfun şəxsi müəllimi ola bilərdi. O, bərabərsizliyin fərqində idi və həyatı boyu bu təhsil məhrumiyyətindən əziyyət çəkdi.

Gecə və Gündüz adlı kitabında yazar, sufrajistlərin cəmiyyətdəki dəyərləri yenidən qurması üçün yetərli gücə sahib olub olmadığını sorğulayır və Meri Detçet personajını bu hərəkatın işçisi olaraq qələmə alır. İllər kitabında isə Rouz P obrazı yaşam boyu qadınların ənənəvi rollarının yıxılması üçün mübarizə aparan sufrajist kimi və Culia Hedcer isə Yaqubun otağında qadınların kişilər ilə eyni haqqlara sahib olduqlarını isbat etmək üçün səbrlə Britaniya muzeyində statistikaları araşdıran feminist kimi oxucuya təqdim edilir. Qadınlar üçün siyasi və iqtisadi bağımsızlıq ideyalarını incələyərək sufrajistlər hərəkatının mübarizə sərhədlərini genişləndirir və onun hər iki cinsin və bütün siniflərin bu azadlığı paylaşdığı sosial utopiyası xəyali bir qavram kimi görünsə belə Vulfun irəli sürdüyü yollar dözümlü və davamlı hesab edilir.

Digər əsas məsələ isə Vulfun kitablarında geniş şəkildə işlənən müharibə mövzusudur. Üç Qvineya, Virciniya Vulfun epistolyar essesi hesab olunur və cəmiyyətin patriarxal paradiqmasında, zorakılığın hökm sürdüyü vəziyyətə dəstək olduğu iddia edilən sistemdə dəyişiklik üçün müraciət edən islahat manifestini təşkil edir. Müəllif cəmiyyətin üzləşdiyi haqsızlıqları və yanlışqlıqları tənqid etmək niyyətindədir.

Üç Qvineya kitabında tarixən ötəkiləşdirilmiş qadınların müharibədə faşizm əleyhinə çıxa bilən siyasi kimlik qura biləcəklərini iddia edir və qadın və kişilərin arasında sülhə ehtiyac olduğunu vurğulaması qlobal və kosmopolit baxış bucağının yaranmasını zəruri hala çevirir. Faşizm və müharibə ilə sonlanan patriarxal cəmiyyəti tənqid edərək yazırdı:

*“Bir qadın olaraq mənim ölkəm yoxdur, bir qadın olaraq ölkə istəmirəm, bir qadın olaraq ölkəm bütün dünyadır”. [33, s197]*

Vulf üç fərqli mənbədən gələn üç məktubla məşğul olur və fərqli səbəblərdən dolayı kömək istəmir. İlk məktub dəstək üçün yalvaran təhsilli bir kişidən gəldiyi üçün diqqətəlayiqdir. Onun tələbləri arasında müharibənin qarşısının alınması üçün uyğun strategiyalar haqqında öz şəxsi düşüncələri, mədəniyyətin və intellektual azadlığın qorunmasının zəruriliyi, əsas məqsədi sülhü qorumaq olan bir cəmiyyətə qoşulmaq üçün ona maliyyə yardımı göstərmək daxildir.

İkinci məktub qadın kollecinin yenidən qurulması üçün vəsaitə ehtiyacı olan bir qadından, üçüncü yazışma isə qadınların işə düzəlməsinə köməklik göstərən başqa bir maliyyəyə ehtiyacı olan qadındandır. Bu məsələlər müzakirə edilərək müharibənin sona çatacağı ümidlərini ifadə edir. Virciniya Vulfa görə dünyada baş verən müharibələrin əsas səbəbi patriarxal cəmiyyətin özüdür. O iddia edir ki, əgər qadınlara azadlıq və təhsil imkanları təqdim edilsə idi, bugün müharibələr olmaya bilərdi.

Matriarxal miflərin və ritualların əsas mənbə olaraq işləndiyi Vulfun sonuncu kitabında "Antiqon" kompleksi xüsusi rol oynayır. Tənqidçilərə görə Sara obrazı Antiqonun alter eqosu kimi çıxış etmiş və Sofoklun tragediyasında kişi hökmranlığına qarşı çıxan Antiqon, örnək qadın obrazı olaraq təsvir edilmişdir. "Üç Qvineya"da patriarxal yolları izləyən Virciniya Vulf "İllər" kitabında yeni yol izləmək qərarı alır və Antiqon həm patriarxal ailədə qızlara vurulan zərəri, həm də müqavimət göstərən qızların müstəqil baxışının fiquru olaraq yaradılır və yazar mifin feminist şərhini yaratmış hesab olunur.

Üç Qvineya, Özünə aid bir otaq kitabına nisbətən daha aqressiv hesab olunduğundan, Vulfun arqumentlərini yaşadığı dövrdə qəbul etmək mümkün deyildi. Müharibənin yaranmasının və hətta təşviq edilməsinin əsas səbəbini patriarxal cəmiyyət kimi görən Vulfun kitabı tənqidçilər tərəfindən sərt və əsassız olaraq dəyərləndirildi.

Cəmiyyətdəki normalar və rollar bioloji faktor deyil, cəmiyyət tərəfindən yaradılır. Gender rollarının müxtəlif cəmiyyətlər arasında fərqli olması isə bunun bariz nümunəsidir. Onun yaradıcılığının digər əsas məqamı isə gender bərabərliyinin vurğulanmasıdır. Cinsi kimlik haqqında ən mükəmməl feminist ruhla yazılmış əsər olan Orlando (1928), Özünə aid bir otaq ilə təxminən eyni vaxtda nəşr edilmişdir. Beləliklə, bu iki əsər çoxlu oxşarlıqlar və çoxlu ümumi mövzuları təklif edir. 1927-ci ildə Vulf "Mayaka doğru" romanını tamamlayanda onun psixoloji durumu yaxşı vəziyyətdə deyildi. Narahatlığını azaltmaq üçün Vulf əvvəlki əsərlərindən daha parlaq və optimist bir şey yazmaq istədi. Vulf gündəliyində qaçmağa ehtiyac duyduğunu qeyd edir.

Və biz Vulfun yaradıcılığında yetərincə bioqrafik elementlər görə bilərik və Orlando kişidən qadına çevrilən şair haqqında yazılmış bioqrafik romandır. Buna görə də, reallıqdan imtina edərək, Vulf kişi və qadın arasındakı gözəl və incə əlaqəni nümayiş etdirmək istəyir, lakin bu fikir açıq şəkildə müzakirə edilsəydi, çox mübahisələrə səbəb olacaqdı. Bioqrafiyada Orlandonun qadına çevrilməsindən bəhs edilir. Kişi və qadının ciddi gender rollarına ayrıldığı, davranış və qabiliyyət baxımından bir-birinə zidd hesab edildiyi bir dövrdə bu fikir çox təəccüblü hesab olunardı.

Yudis Butlerin qeyd etdiyi kimi, bu kitab kişi və qadın olmağın nə demək olduğunu göstərən dərin tədqiqatdır. Cinsi kimlik mövzusunu bu tənqidi romanda aydın şəkildə görmək olar. Bu, kitabda Orlandonun qadına çevrildiyi hissədə baş verir və bu cinsi uyğunlaşma feminizmin əsas məqamlarındadır. Üstəlik, Orlando cinsiyyət dəyişikliyindən olduqca məmnun olduğun bildirir. Orlando həmişə kişi və qadın arasındakı fərqlər haqqında düşünür və daha sonra başa düşür ki, bütün bu yaşananlar fiziki məsələlərə deyil, sosial məhdudiyyətlərə aiddir. Buna görə də, qadına çevriləndə fərqli bir insan olmadığını hiss etdi.

Vulfun əsas məqsədi isə Orlando personajanın köməyi ilə daxildə eyni insan olsa da, cinsiyyəti ilə bağlı bir çox süni dəyişikliklərə uyğunlaşmalı olduğunu vurğulamaqdır. Kitabın qalan hissəsində Orlando cinsini dəyişdiyi üçün məhdudiyyət və problemlərlə üzləşəcək. Vulf, qadınları patriarxal güc nümayiş etdirən cəmiyyət içərisində bütün bu çətinliklərin öhdəsindən gəlməyə çalışan müqəddəs varlıqlar kimi təsvir edir. Buna dözməyə vadar olan qadınlardır.

Orlandoda qeyd edildiyi kimi, cinsin dəyişməsi kimliyin dəyişrməsinə təsir etmədi, yəni uşaq dünyaya gəlməmişdən əvvəl onun cinsinə görə cəmiyyətdəki potensial rolu barədə qərarlar öncədən alınır. Bundan əlavə, Orlandonu transgender kimi qəbul edə bilərik. Əslində o, belə bir dəyişiklikdən utanmadı, lakin ənənəvi cəmiyyət üçün bu, qəribə və utanılacaq bir şeydir.

Modernist və feminist yazar hesab olunan Virciniya Vulfun reformist düşüncə tərzi siyasi olduğu qədər eləcə də estetik idi. Yaradıcılığı boyu qələmə aldığı kitablarında və esselərində patriarxal düşüncə tərzini yıxmağa, cinsi ayrı seçkiliyi

aradan qaldırmağa çalışmış, tarixi dəyişikliklər və öz yaşadığı təcrübələri onun siyasətə olan baxışının dəyişməsinə və nəticə olaraq yaradıcılığının fərqli bir istiqamətdə formalaşmasına gətirib çıxarmışdır. Sosial və iqtisadi məsələləri və qadınların liminal məkanlarının vacibliyini vurğuladıqdan sonra özünün androgen düşüncə tərzini ortaya qoyuraq, 19-cu əsr ədəbiyyatında dekonstruktiv və feminist bir yazar olaraq tanınmışdı

# II FƏSİL.
# VULFUN YARADICILIĞINDA GENDER MƏSƏLƏSİNİN İŞLƏNMƏ SƏCİYYƏSİ

## 2.1 "Xanım Dallovey" əsərində evlilik nizamlayıcı funksiya kimi

Vulfun romanlarına olan feminist yanaşması onun bədii əsərlərinə qarşı böyük maraq doğurmuş və bu illər ərzində bir çox tənqidçilərin mənfi və ya müsbət fikirləri ilə qarşılaşmışdır. Üstəlik, onun yazılarının bu nöqtəsi onun oxucularının və o dövrün tənqidçilərinin Vulf haqqında fikirlərini dəyişdirmiş və onun feminist yazıçı kimi tanınmasına kömək etmişdir. Təəccüblü deyil ki, qadın kimliyi və onların cəmiyyətdə qarşılaşdığı problemlər onun yaradıcılığında diqqət çəkən əsas məqamlardan biri idi, çünki Vulfun həyatından bildiyimiz qədəri ilə o, bu məsələlər ilə daim maraqlanıb və qadınlar və onların qayğıları ilə bağlı müxtəlif təşkilatlarda fəal iştirak edib. Vulf köhnə adət və əxlaqların dağıldığı bir mühitlə əhatə olunmuşdu. O, qadın itaətkarlığı və köləlik ideyalarını dəstəkləyən patriarxal cəmiyyətin fərqində idi. Ancaq kitablardan öyrəndiyi öz şəxsiyyətinə hörmət və bərabərlik ideyası ilə o, cəmiyyətin əsas norma və adətlərinə qarşı davamlı müqavimət göstərirdi. O, həmişə iddia edirdi ki, patriarxal sistemi yıxmaq üçün qadınlar yazıb maddi müstəqillik əldə etməlidirlər.

Gecə və Gündüz, Yaqubun otağı, Xanım Dallovey və İllər kimi romanlarda Vulf fərdin sosial mühit tərəfindən necə formalaşdığı (yaxud deformasiyaya uğradığı) məsələsi ilə dərindən maraqlanır… və əsas məsələ sinfi təbəqənin, var-dövlətin və cinsin onların taleyini necə müəyyən etməyə necə təsir göstərdiyini bildirir. Vulfun romanı Birinci Dünya Müharibəsindən beş il sonra, 1923-cü ilin iyun ayındakı adi bir gün haqqındadır və o dövrdə Vulf Londonda yaşayan müxtəlif insanlarım bu cür məkanlarda fərqli şəkildə həyat yaşamasından bəhs edir.

Viktoriyan dövründən müasir dövrə keçid çox böyük ictimai və siyasi dəyişikliklərin baş qaldırmasına səbəb oldu və bu dəyişikliklər o dövrün ədəbiyyatında da öz əksini bilavasitə tapdı, o cümlədən müasir ədəbiyyatın

nümayəndəsi hesab olunan Vulf, sağlığında baş verən müasir dövrün sosial sistemini tənqid edə biləcəyi və əsas qayğılarını əks etdirə biləcəyi bir roman olan Xanım Dalloveyi qələmə aldı. Xanım Dalloveydə qadınların çarəsiz vəziyyətinə münasibəti ilə tanınan feminist qadın yazıçı kimi qadın zülmünün səbəblərini açır və o dövrün qadınlarının həyatlarını əldə etmək və öz kimliklərini dərk etmək üçün qarşılaşdıqları mübarizələrdən bəhs edir. Bu əsər feminist personajların vasitəsilə yazarın fikirlərini aydın və açıq şəkildə əks etdirdiyi əsas nümunəsi olmuşdur.

Virciniya Vulf birinci dünya müharibəsi dövründə yaşayan qadınları və onların patriarxal cəmiyyət, cinsi basqı, gender ideologiyaları, özgəninkiləşdirmə və digər şərti amillərlə formalaşan çətin həyatlarını təsvir edir. Romanın mərkəzi olan Klarissa qadın şəxsiyyətinə gəldikdə, bu araşdırmanın əsas diqqət mərkəzindədir, beləliklə, onun çoxşaxəli, qeyri-sabit kimliyi və sabit “mən” anlayışına nail olmaqda üzləşdiyi maneələri analiz edilir.

Vulfun gündəliklərində yazdıqlarından da aydın olduğu kimi kitabın adı “Saatlar” (The Hours) idi. Lakin Virciniya Vulf bu şəkildə mücərrəd başlıq əvəzinə personajın adını seçməyi qərara alır. Hətta bu nümunədən anlaya bilərik ki, yazar öz kitabında real dünya yaratmaq istəyir, ona görə də o, kitabda real bir xarakterə istinad edən başlıqdan istifadə edir. Buna baxmayaraq, kitabdakı bütün hadisələrin xanım Dallovey haqqında olduğunu düşünmək olmaz. Bu real dünya vurğusu sadəcə kitabın zahirində qeyd olunur.

Xanım Dallovey, Klarissa Dalloveyin hekayəsini oxucuya onun həyatının bir gününün izahı kimi təsvir edir və keçmişdəki hadisələri xatırlamaq vasitəsilə onun zehninə nəzər salır. Hekayə Vulfun ən çox bəyəndiyi London şəhərində cərəyan edir. Hər şey bir gündə baş verir əslində bu gün haqqında xüsusi bir şey müşahidə etmək mümkün deyil. Bu, Klarissa Dalloveyin şam yeməyi verməyə hazırlaşdığı gündür. Beləliklə, Klarissa ziyafət üçün verdiyi tapşırıqlarla məşğuldur. Həmin gün onun köhnə dostu Piter Uolş beş ildən sonra Hindistandan İngiltərəyə qayıdır. Nəhayət, veteran Septimus Uarren Smit, Klarissa və qonaqları şənlikdə olduqları zaman intihar edir. Kitab boyu öyrəndiyimiz yeganə şeylər bunlardır. Halbuki, açıq və birbaşa bilmədiyimiz şeylər ən əhəmiyyətli olanlarıdır. Xanım Dalloveydə Virciniya Vulf

hadisələrin səhnələrini dəqiqliklə təyin edir. Biz hər an Londonun hansı hissəsində olduğumuzu hiss edə bilirik. Küçələr və binalar öz real adları ilə qeyd edilir, diqqətlə və incəliklə seçilir.

Yazarın incə, feminist tonu kitabın əvvəlindən yaranır. Klarissa qulluqçusunun çox işi var deyə ziyafət üçün çiçək almağa getməyə qərar verir. Lakin o, ani şəkildə keçmiş sevgilisi Piter Uolş haqqında düşünməyə başlayır. Kitab bir günü əhatə etsə də, oxucu hekayənin bundan daha uzun sürdüyünü hiss edir. Bu təəssüratı yaratmaq üçün xanım Vulf öz personajlarını Londonun küçələrində gəzdirir və onlardan ikisi təsadüfi şəkildə ünsiyyətə girəndə o, sizə hər birinin tarixi haqqında geniş şəkildə məlumat verməyə başlayır. Digər modernist yazıçılar kimi, Virciniya Vulf da romanlarında personajlarının mürəkkəb, incə düşüncələrindən və zamandan sadə oyuncaq kimi istifadə edərək, kitabını poetik yazı üslubu ilə toxuyur. Xanım Dalloveydə “ həqiqi keçmiş , faktiki indiki  və gələcək  bir yerdə birləşir. ” [17. s23]

Bununla belə, xanım Dalloveydə Klarissa Dalloveydən bəhs edərkən kitabda istifadə edilən adlar fərqli mənalar ifadə edir. Kitabın baş qəhrəmanı Klarissa Dallovey London küçələrində oxucuya təqdim olunur. Məsuliyyətli və müəyyən bir güc sahibi kimi təsvir edilən xanım Dalloveyin romanda üst təbəqəni və konvensiyaları təmsil etdiyini söyləmək olar. Yazarın zehninin dəhlizlərində gəzərək, Klarissa Dalloveyi ətraflı şəkildə müşahidə edə bilərik. Belə ki, xanım Dallovey haqqında Vulf öz gündəliyində bu şəkildə yazırdı - Bu kitabda mənim demək olar ki, çoxlu fikirlərim var. Mən həyat və ölüm, ağıl və dəlilik haqqında danışmaq istəyirəm.

Xanım Dalloveyin həyatından bəhs edərkən Vuf öz həyatında yaşadığı ziddiyyətli məsələlər və paradoksal təcrübələri təqdim edir. Klarissa digər personajlardan daha çox Vulfun şəxsiyyətinin mürəkkəb təbiətini təcəssüm etdirir. Klarissa güzgüyə baxaraq öz kimliyi haqqında düşünür:

*“She pursed her lips when she looked into the glass. That was herself when some effort, some call on her to be herself, drew the parts together, she alone knew how different, how incompatible and composed so for the world only into one center.” [34. s74]*

*(Şüşəyə baxanda dodaqlarını büzdü. Bəzi cəhdlər, kimlərsə onu özü olmağa çağıranda, parçaları bir araya gətirəndə, o, dünya üçün nə qədər fərqli, nə qədər uyğunsuz və yalnız bir mərkəzdə nə qədər uyğun olduğunu sadəcə özü bilirdi.)*

Klarissa sadə bir şəxsiyyət deyil, hətta əksinə, çox mürəkkəb və qeyri-müəyyən bir personajdır. Piter Uolşun rəhbər tutulduğu kitabda onun rəhbərliyi ilə oxucu Klarissanın sirli örtüyünü açmağa başlayır. Aydındır ki, o, şəxsən özü, özünün hansı üzünü dünyaya təqdim edəcəyini seçir. Güzgüdəki görüntü dəyişir, bir tərəfdən Klarissa şənliklər və çiçəklərin qadınıdır, digər tərəfdən hər şeyi qaraldan eynəklərini taxmağa davam edir. Bu vəziyyətdə Klarissanın bacısının ağacdan yıxılaraq ölməsi böyük rol oynaya bilər. Buna baxmayaraq, Klarissa kitabda bu hadisəni açıq şəkildə qeyd etmir. Oxucu bunu Piter Uolşdan öyrənə bilir.

Klarissanın şəxsiyyəti onun mühitindən asılı olaraq dəyişir. Bu məqam qadının gücsüzlüyünü vurğulayır. Beləliklə, dövrünə görə əsl qadınlar sayılan Viktoriya qadınlarını bu kitabda tapmaq mümkündür, çünki onlar patriarxallığı daha çox təcəssüm etdirirlər. Qadınlar bu dövrdə öz əsl dünyalarını göstərə bilmirdilər. Qadınlar viktoriya dövründə yayılan və kişilərin üstünlüyünü göstərən bir anlayış olan Böyük Adama (Great Man) məcbur edilirlər.

Buna uyğun olaraq, Virciniya Vulf kitabda patriarxal cəmiyyətin qadınlara olan təsirlərini təsvir edir. Onun əsas məqsədi qadınların həyatlarının tənhalığını və itaətkarlığını təsvir etməkdir. Bu cür cəmiyyətlərdə kişilər qadınları və onların davranışlarını əzməklə, alçaltmaqla öz üstünlüklərini sübut etməyə çalışırlar. Lakin əslində kişilər güclərini və hökmranlıqlarını itirməkdən qorxurlar, buna görə də əsas məqsəd qadınların özlərinin şəxsiyyətlərini dərk etmələrinə mane olmaqdır.

Kitab Klarissa personajını mərkəzə qoyaraq, ingilis cəmiyyətində aparılan gender fərqlərini və bərabərsizlikləri nümayiş etdirir. Klarissa kitabda sevgi üçbucağında təsvir edilmişdir: Riçard Dallovey, Piter Uolş və Salli Seton. O, bu üçlüyün arasında dayanır və bu üçbucağın hər tərəfi onun özəlliklərinin bir hissəsini təmsil edir. Kitab boyu Klarissa öz davranışlarına haqq qazandırmağa çalışır. Piter davamlı müdafiə edən və sahib olmağa çalışan tərəfdir və beləliklə, Klarissa onun təklifini rədd edir və Riçardın təklifini qəbul edir.

O, əslində məhəbbətdən çox məhrəmliyi seçir. Ancaq cütlüyün evliliyi xoşbəxt və uğurlu kimi təsvir edilmir. O, gününün böyük bir hissəsini Riçarddan uzaq qalaraq öz otağında keçirir. Personajların ortaq heç bir xüsusiyyəti yoxdur və keçirilən şənliklər Klarissanın tənhalığını gizlətmək üçün gizli bir yoldur. Bu nəticəyə gəlmək olar ki, həmin məclisləri özünün bütün gizli duyğularını ifadə etmək üçün bir qapı, çıxış yolu kimi hazırlayıb. Öncəki fəsildə qeyd etdiyim kimi Fridanın üzərində dayandığı və "adı olmayan problemlər" adlandırdığı məqamlardan biri də məhz budur. Bu mənada o, sosial olmağı və vaxtını başqa insanlarla keçirməyi sevən əyləncəli bir qadın kimi görünə bilər. Ziyafətlər vermək Klarissanın patriarxal cəmiyyət ilə ikinci müqavimət aktıdır. Riçardla evli olmasına baxmayaraq, o, dar otağının tənhalığından şənliklər təşkil etməklə ondan qaçır. Li bu haqda fikirlərini ifadə edərkən şənlik, insanların bir araya gəlməsi Klarissanın Salli və Piter üçün sevgisini ifadə edir ,cümləsindən istifadə edir.

Bu davranış onun bədbəxt evliliyinin reallığına əsaslana bilər. O, parlamentin üzvü olan Riçardla evlidir. Riçardın işi sayəsində onlar Londonun zəngin bir yerində həyatlarına davam edə bilirlər. Ona görə də bir tərəfdən maddi gücü olduğu və cəmiyyətdə tanınmış bir kişi ilə evləndiyi üçün xoşbəxt və razı olmağı istədiyi halda, yaşadığı dövrü nəzərə alsaq, bir qadının istəyə biləcəyi hər şeyə sahib olduğu kimi görünə bilər lakin bu sadəcə hekayənin zahiri görüntüsüdür. Xüsusən də heç bir bağımsızlıqlarını qazana bilməyən qadınların həyatındakı həmin boşluğu həyat yoldaşlarının doldura biləcəyi düşüncəsi varkən.

Kitabda iki mərhələ var: birincisi, uğurlu şənliyin keçirilməsi patriarxiya tərəfindən qadınlara onları məşğul saxlamaq üçün seçdiyi əsas vəzifələrdən biri kimi iddia oluna bilər. İkincisi, kişi əxlaqına uyğun sadə bir hekayə çıxararaq kişilərin üstünlük təşkil etdiyi ədəbiyyata qarşı üsyan. Bununla belə, süjetdə feminist yanaşma əsas mövzu deyil.. Hekayənin quruluşu olduqca qeyri-ənənəvidir, bu da oxucunun personajların düşüncəsinə qarışmasına səbəb olur.

Bununla belə, Klarissanın həyatından məmnun olmadığı da göz qabağındadır. Tədqiqatçılara görə onun Riçardla evlənmə səbəblərindən əsası ondan çox şey etməsini gözləməyəcəyini ümid etməsi idi. Bir baxımdan, itaətkar olmaq istəmədiyi

üçün Klarissanın etdiyi şey ağlabatan ola bilər. Buna baxmayaraq, Piterlə qarşılaşdıqdan sonra onu sevdiyini və keçmişi düşünməyə başlayır. Beləliklə, Riçard onun məntiqi düşüncələrini simvolizə etsə də, Piter onun duyğularını və zəifliyini göstərir. Üstəlik, həmin dövrdə evlilik məfhumu müqəddəs bir şey kimi qəbul edildiyindən, fərdlər, xüsusən də qadınlar əziyyət çəksələr belə, evlilikdən qaça bilməzdilər. Qadın ailənin şərəfini qoruduğuna görə, onun etdiyi hər şey ərinin nüfuzuna təsir edəcək. Beləliklə, evli qadınlar evli olmayanlara nisbətən cəmiyyətdə daha çox hörmətə sahib idilər.

Bundan əlavə, Klarissa itaətsiz qadın kimi görünmür, çünki sistem qadını elə düşünməyə vadar edir ki, sanki bu həyatda onu müdafiə edən, sevən ərə sahib olmaqdan daha yaxşı alternativ yoxdur. Bu vəziyyəti bu ifadə ilə səciyyələndirmək olar:

*"A woman is recognized by her shoes and her gloves."- "Qadın ayaqqabısı və əlcəyi ilə tanınır." [ 34. s75]*

Virciniya Vulf iki fərqli insan, iki fərqli vəziyyət yaradır. Romanın sonunda Septimusun intiharı ilə bu fərqli dünyalar tamamilə bir-birinə birləşdirilir. Bu məqam ona görə çox ironikdir ki, bir tərəfdən şənlik hazırlığı ilə məşğul olan qadının həyatı və digər tərəfdən isə ölüm və intihar var. Ölüm anlayışı Klarissa və Septimusun heç birinin bundan xəbəri belə olmasada aralarında bir növ bağ yaranır. Həm Klarissa, həm də Septimus obrazını səthi təhlil etdikdə, onların iki fərqli dünyanın nümayəndələri olduqlarını görmək olduqca mümkündür.

İki fərqli dünyanın personajları olsalar belə, eyni məqsədlərə xidmət edirlər. Bu məqsəd onların yaşamalı olduqları cəmiyyətin dəyərlərini tənqid etməkdir. Onların hər ikisindən də başqa insanların xeyrinə işləmək tələb olunur və onlar etdikləri və həyata keçirdikləri bütün cəhdlərə baxmayaraq, nə həyatlarını, nə də istəklərini idarə edə bilirlər. Ona görə də hər ikisi fiziki və mənəvi olaraq əziyyət çəkir. Buna baxmayaraq, Klarissa sahib olduğu soyadı ilə xatırlanmağa məhkumdur ki, bu da onun evli qadın olduğunu, həyat yoldaşının kimliyi ilə cəmiyyətdə mövqe tutduğunu göstərir. O, həmişə Klarissa deyil, xanım Dallovey sayılır. Çünki o, Riçard Dalloveyin həyat yoldaşıdır.

Bu, romanın bu iki əsas personajı arasında maraqlı bir təzad yaradır. Klarissanın xanım Dallovey kimi qəbul edilməsinə səbəb ərinə görə sahib olduğu kimlik və var-dövlətdir. Evlilik və bu yeni soyad fərdiliyin itirilməsidir: Klarissa yoxdur, Xanım Dallovey var. Klarissa şənliklər təşkil edir, çiçəklər alır, paltarlarını düzəldir və o dünyanın vacib məsələlərindən xəbərsizdir. Digər tərəfdən, digər baş qəhrəman Septimusun əyləncələrlə heç bir əlaqəsi yoxdur. Yaşadığı cəmiyyətlə bağlı hər şeydən xəbərdardır və azaddır, istəmədiyi heç bir işi görmək məcburiyyətində deyil. Romanın sonunda o, intihar etməklə azad olduğunu göstərir. Öz çarəsini tapır və ölümü seçir. Bu bir qurtuluş idi. Septimus istədiyini edə bildi, lakin Klarissa bacarmadı. O, Septimus qədər cəsarətli deyildi.

Nəticədə biz görə bilərik ki, Klarissa rəsmi evlilik münasibətində həbs edilib və Riçardın psixologiyasını tarazlaşdırmaq və kömək etməyə məcbur edilib. O, Vulf tərəfindən kitabda yaradılmış cinsiyyətçi obrazı təmsil edən dövrünün digər qadınlarının düşüncələrini, davranışlarını və geyimlərini bəyənmir. 20-ci əsrdə evlilik aradan qaldırıla bilməyən bir bağ hesab olunurdu, çünki qadınlar çox gənc yaşlarında evlənmək və həyatları boyunca kişilərə xidmət üçün tərbiyə edilirdilər.

Bundan əlavə, cəmiyyətdə evli qadınlar subay qadınlardan daha çox heyranlıq doğururdu. Buna görə də Klarissa, Salli Seton ilə münasibəti olmasına baxmayaraq, öz şan-şöhrətinin qayğısına qalmağa çalışır və bu bağı qoruyub saxlamaq istəyir. Qadınlar üçün evlilik çox vaxt istedad, qabiliyyət və hətta gözəllik kimi şəxsi özəlliklərdən asılı olmayaraq, cəmiyyətdə mövqe tutmağa xidmət edirdi. Virciniya Vulf həyatın, xüsusən də evli qadınların həyatının həqiqətini açmaq üçün "Xanım Dallovey"i yazır. O, personajlarının cəmiyyətdəki reallıqlarını və mübarizəsini ələ almğı hədəfləyirdi. Evlilik XX əsrdə də mübahisələrin mərkəzi mövzusu olaraq qalmaqda davam edirdi. Qadınlar cəmiyyətdə bağımsızlq qazandıqca başqalarından daha çox özlərinə üz tutmağa başlayırlar və evlilik artıq onların həyatında zərurət olmaqdan çıxır. Ənənəvi evlilik institutu artıq qadınlar üçün sığınacaq kimi qəbul görmür. Virciniya Vulf personajlarının yüklərini və istəklərini araşdıraraq, bütün zamanların oxucularına, yəni eyni problemləri paylaşan insanlara çatmağı hədəfləyir.

Riçard Klarissa üzərində müəyyən iqtidars sahibdir və onun haqqında bütün qərarları verə bilmək gücünü özündə tapır. Virciniya Vulf, bir-birlərinə dəstək olmaq və gücləndirməyi tələb etməkdənsə, vaxtlarını boş yerə xərcləyən qadınların davranışlarını öz dəyərlərini bilməməkdə günahlandırır. Əslində, bu halda, Klarissa rəqabət əvəzinə birliyi təşviq etsəydi, daha üstün və təqdirə layiq davranış sərgiləmiş olacaqdı. Buna baxmayaraq, Riçard həyat yoldaşından daha çox siyasətlə və şəxsi işləri ilə məşğul olur. Məclislərə onsuz dəvət edilir və ya əksər hallarda onu tək qoyur. Onlar rəsmi olaraq evlidirlər, amma reallığa nəzərə salsaq həyatları bir-birilərindən tamamilə uzaq və ayrıdır. Eyni evi paylaşsalar da, sanki bir-birindən uzaqdadırlar və görünməz divarlar onları gizlədir. Bu evliliklə Klarissa maddi olaraq istədiyindən daha çox şey qazanır, lakin bu, onu bədbəxt birinə çevirir və depressiyaya salır.

Bununla belə, sadəcə Klarissa yox, Riçard da mənəvi və emosional narahatlıqlarla üzləşir, lakin o, öz hisslərini açıqlamaq gücü özündə tapa bilmir. Klarissanı tanımırdı, çünki emosional biri olaraq onu başa düşməyə çalışmalı idi və o dövrdə bu xüsusiyyət yalnız qadınlara məxsusmuş kimi qəbul edilirdi. Piter həmişə bilirdi ki, Klarissada qadın cazibədarlığı yoxdur, o soyuqqanlı idi, heteroseksual münasibətdə lazım olan həssaslıqdan məhrum idi. Ronchetti qeyd edir ki, Klarissanın Riçarda olan ehtiras çatışmazlığı onu ruhunun azadlığını məhv edən sevginin şiddətindən qorudu.

Kitabın qadın qəhrəmanı olan Klarissa qadın müqavimətini təcəssüm etdirir. Qarsianın sözləri ilə desək, "Xanım Dallovey [...] kimliyin toplum tərəfindən yaradıldığı və məcbur ötürüldüyü bir dövrdə yüksək siyasi hesab olunan müqaviməti çatdırır. " [16. s16] Klarissanın ilk müqaviməti onun gənc sevgilisi Piter Uolşdan imtina etməsində görünür. Piterin evlilik təklifini rədd edərək, Klarissa əslində, Piterin qadınları evin küncündə qalmağa layiq bildiyi stereotipləşdirmə idealından qaçmaq üçün mübarizə aparır.

Piter personajı daha çox patriarxal cəmiyyətin bir hissəsi olan tələbkar bir adam kimi təsvir edilmişdi. O düşünür ki, Klarissaya nəzarət etmək və onun həyatını formalaşdırmaq hüququ var və Klarissa qadın olduğu üçün onun üzərində

hökmranlıq etmək onun borcudur. Bununla belə, bu, həqiqət deyildi. O, Piterə aid xatirələrini xatırlayır və ona olan sevgisini ürəyində gizlətməyə davam edirdi. Buna baxmayaraq, Klarissa Piterlə evlənməməklə düzgün qərar verdiyinin fərqindədir. O, həyatında özünə aid bir azadlıq istəyir. Çünki Klarissa, kişi hökmranlığı və himayəsinə möhtac olan qadın kimi qəbul edilmirdi.

Nə Piter, nə də Riçard onun düşüncələrinə uyğun bir münasibəti qəbul etməyəcəkdilər və nəticə olaraq hər ikisi onu xoşbəxt hiss etdirməyəcəkdi. Çünki Piter Uolş da təkəbbürlü biri olaraq patriarxal cəmiyyətin dəyərlərinin dəstəkçisi kimi təsvir edilirdi. Qadınların ondan dəyərsiz varlqılar olduğunu düşündüyü üçün, onu dünyanın mərkəzinə qoymalıdırlar fikri ilə özünü aldadırdı. Klarissanın kişi eqosentrizmini rədd etdiyi üçün onunla evlənməkdən imtina etməsinin səbəbi bu ola bilər.

*(Evlilikdə birlikdə yaşayan insanlar arasında bir bağımsızlıq olmalıdır.)(34)*

Buna baxmayaraq, Piterlə hər şeyi bölüşməyə məcbur olacaqdı. Bu nöqtədə, Piterin paylaşım anlayışı ümumi bir paylaşma üçün deyil, daha çox Klarissanın öz idealında formalaşması üçün həyata keçirəcəyi akt olacaqdı. O, Klarissanın onun mülkü olmasını istəyirdi.

*(Piterin Klarissadan bütün ümidlərini, qorxularını və sevinclərini ona buraxmasını tələb edəcəyini bilirdi. O, Riçard Dalloveydə təhlükəsizliyi seçdi.)*

Ancaq onun davranışlarının bəzi cinsi ayrıseçkilik xüsusiyyətlərini müşahidə edə bilərik. Məsələn, o, qadınları azad fərdlər kimi deyil, obyekt olaraq gördüyü üçün özünə olan hörmətini təsdiqləmək və gücünü nümayiş etdirmək məqsədilə evlənərək üçün Deyzi Simmonsdan istifadə edir. Digər qadınların isə təhsilsiz və maddi olaraq özlərini təmin edə biləcək güclərinin olmadığının fərqində olaraq hər zaman onu arzuladıqlarını düşünür.

Ona görə də Vulf burada yenə qadının baxış bucağını genişləndirməyə çalışır və bu qorxunun kişilərin güclərinə olan inamlarını necə çökdürəcəyi barədə qadınları bağımsızlığa dəvət edir, çünki ilk dövrlərdə insanlarda patriarxal yanaşma ilə formalaşmış önyarğılar var idi. Kişilər qadınlara bəsit bir varlıq kimi yanaşırlar, qadınlar isə eyni şəkildə digər qadınları tənqid edirlər. Bu vəziyyətdə kişi üstünlüyü

qadın üzərində müvəffəq olur və bu ayrı-seçkiliyin kökündə Vulf bir feminist olaraq diqqət yetirdiyi təhsil və maliyyə imkanlarının olmamasını görür.

Əksinə, Klarissanın Salli Seton ilə münasibəti digərlərindən fərqli olaraq ən dərin hisslərin olduğu münasibət idi. Virciniya Vulf hesab edir ki, Klarissanın Salliyə qarşı hissləri əkscinsləri ilə müqayisədə daha sahiblənici və daha dəyərlidir. Bu mənada Salli iki gender bərabərliyini dəstəkləyən anti-patriarxal qadın kimi təsvir edilir. Beləliklə, o, əslində Klarissa üçün rol model olaraq çıxış edir. Salli ilə emosional münasibəti onun feminizmə meylini və ənənəvi qaydaları pozduğunu göstərir. Ancaq sonda bu cür sevginin cəmiyyətdə qəbul edilməyəcəyini qəbul etməli olur. Nəhayət, o, patriarxal həqiqətlərə boyun əyərək bunu qəbul edir və Sallidən imtina edir. Digər tərəfdən, Salli də zəngin bir adamla evlənərək, ənənəvi ana olmaqla itaətkar bir qadına çevrilir. Onların arasında yaşadıqları cəmiyyət tərəfindən qəbul edilmədiyi üçün azadlıqları və xoşbəxtlikləri bahasına cəmiyyətin normalarına boyun əyməli olurlar. Sadəcə kişilərin işləyə bildiyi və iqtisadi gücə sahib olduqları üçün o dövrdə qadınlar evlənməyi həyatda qalmağın yeganə yolu kimi görürdü.

Gerçək nə olursa olsun, Vulf oxucuya başqa bir mənfi personajı göstərir, o da Cənab Uilyamdır. O, dar düşüncəli cəmiyyətin qulluğunda duran boş bir zülmkar olmuşdur. Müharibə patriarxal cəmiyyətin ən vacib simvollarından biri olduğundan, o, müharibənin Septimus üzərində sarsıdıcı təsir göstərə biləcəyi həqiqətinə heç vaxt inanmır və bir qadının cəmiyyətdəki mövqeyini və imtiyazlarını sorğulaya bilməyəcəyi kimi o da heç vaxt müharibənin dəyərlərinə və gücünə şübhə etməyəcək və sorğulamayacaq. Cənab Uilyam Bredşoun fikrinə görə, o, hətta insanları itaətkar insanlara çevirə bilər və arvadı onun itaətkar qadına uğurla çevirdiyi ilk təcrübəsi ola bilər.

Ailə quran qadın patriarxal sistemə tabe olan, şəxsi fikirlərdən məhrum olan yüksək təbəqəli qadına, başqa sözlə, ərinin hökmünə tabe olan bir kuklaya çevrilir. Bu arada, sistemin bir nailiyyəti olaraq, cənab Uilyam Bredşou, yaratdığı qadın obrazından çox məmnun olaraq təsvir edilmişdir. Bu səbəbdən Vulf oxucularına öyrətməyə çalışır ki, kişi zülmü altına alındıqda, onlar buna dözməməlidirlər.

Beləliklə, antaqonizmlərini inkar, təhdid və fikirlərini qəbul etdirmək kimi saysız-hesabsız üsullarla dilə gətirirlər.

Vulf yerli dəyərlərin qadını necə bədbəxtliyə sürüklədiyini və onların bədənlərini, hətta adlarını idarə etmək haqlarını itirməsinə səbəb olduğunu qeyd edirdi. Qadının həbsdə olduğu sərt reallıq onları aşağı bir insan kimi görülməyə vadar edir. Beləliklə, Vulf sosial sxemi pisləməli olduğunu bəyan edir və bunu öz işlərində bariz şəkildə göstərir. Cənab Uilyam Bredşou və Piter Uolş, bu personajların hər ikisi romanda sırf patriarxal hökmranlığın tərəfdarıdırlar, ona görə də onlara görə, kişilərin hər şeyə hakim olması və idarə etməsi düzgündür və gücləri şübhə altına alındıqda əsəbləşmək onların hüququdur. Bredşou sözün həqiqi mənasında insanları məhdudlaşdırır, həm də onları özünün və cəmiyyətin normallıq anlayışına tabe olmağa məcbur edir.

Bu mənada, Virciniya Vulf oxucuya müxtəlif qəribə dəyərləri və xüsusiyyətləri olan mühafizəkar bir cəmiyyət nümayiş etdirir. 20-ci əsr qadınlar üçün məişət sferasında oynadıqları görünməz rola görə işgəncə olmasına baxmayaraq, kişilər ictimai və sosial həyatda aktiv həyat tərzi yaşamaqdadır. Vulf tərəfindən amansız həqiqət kimi təsvir edilən müharibə personajların psixoloji xəstəlik və təcavüzə məruz qalmasına səbəb olub. Septimusu misal çəkə bilərik, o, zabit olsa da, vətənini qorumaq üçün müharibəyə qatıldıqdan sonra yaxın dostunun gözləri qarşısında vəfat etməsi səbəbindən ruhi xəstəlikdən əziyyət çəkir. O, ev, uşaqlar və ərinin ehtiyacları ilə bağlı daha çox məsuliyyəti üzərinə alan arvadının günlərini daha da çətinləşdirirdi. Müvafiq olaraq, Vulf hər iki cinsi müşahidə etmişdir. Bu fakt onun əsərini feminizm hərəkatında əsas məqsəd olan androgen düşüncə ilə yazdığını göstərir. Tarix boyu qadınlar eyniliyin insanların fərdiliyinə çevrildiyi yeni vətəndaş cəmiyyəti qurmaq naminə seksizmə qarşı mübarizə aparıblar. Vulf evliliyin sosial inkişaf kimi yanlış anlaşılmasını vurğulayır. O, evliliyin fərdlərə, xüsusən də qadınlara ölümcül təsiri haqqında mükəmməl izahat verib.

O dövrdə qadınlar mal-mülkdən, işdən və müəyyən hüquqlardan azad olduqları üçün qaçış yolu tapmağa çalışırdılar və bu qaçış evlilik idi. Buna görə də, evlilikləri müddətində qadınlar onların əleyhinə ola biləcək hər şeyə qarşı susmalı idilər. Niyə?

Çünki onların seçimi daha az idi. Məsələn, boşanmış qadınlar lənətlənmiş və çirkin görünürdülər.Roman boyunca Vulf kişilərin idarəsi altında yaşamadan ambisiya və məqsədlərlə yaşayan feminist personajları formalaşdırmışdır. Onlar Ledi Bruton, Selli Seton və ya Doris Kilman idi. Alışılmış ədalətsizliyə etiraz etmək bu təhsilli qadınlar arasında özlərinin ən təbii hüquqları kimi görünürdü. Onlar vaxtlarının çoxunu siyasi müzakirələrə və kitabların tərcüməsinə həsr edirdilər. Onlar, həqiqətən, bağımsız olan yeganə insanlardır, ictimaiyyətin qadınlar üçün qoyduğu standartları rədd edirdilər.

Buna görə də, Ledi Bruton öz yerli mədəniyyətinin əxlaqını sındıran feminist şəxsiyyət kimi çıxış edir. Bundan əlavə, o, kişilərin düşüncələri və istəkləri ilə əlaqəli olan hadisələrlə dərindən maraqlanır. Əslində, həyatında bütün gücə sahib olduğu üçün heç bir məhdudiyyətə boyun əymək məcburiyyətində deyil. Burada Vulf vəziyyəti bütün incəliyi ilə önə çıxarmaqla oxuyucularında kişi cəmiyyətinin təsirini zəiflətməyə çalışır. Vulf, kişi fiqurlarının sorğu-sual olunarkən antaqonizmlərini necə ifadə etdiyini və evliliyin və patriarxiyanın qadınlara mükafat olaraq verildiyi bütün adətlərin həqiqətən qorunmadığını və həyatda heç bir qadını xoşbəxt emədiyini təsvir edir.

Vulf öz personajlarını daxillərində feminist bir istək sahibi kimi təsvir edir və qadınlara nikbin gözlə baxır, lakin bu qadınlar qapının astanasından keçə bilmirlər və ya patriarxiyanın bəyəndiyi mövqeyi qəbul edirlər. Bununla belə, Vulf ağıllı şəkildə adi normalar çərçivəsində həbs olunmağın ya ölümə, ya da sükutun toruna düşməyə gətirib çıxardığını təsvir edir. O, təsvir edilmiş personajlar və sözlərdən istifadə edərək, sosial sxem daxilində kök salmış bütün qəddarlığı ortaya qoyur ki, oxucu öz mühakiməsinə gələ bilsin.

Aydındır ki, o dövrdə qadınlara sadəcə öz analarının nəzarəti ilə sosiallaşmağa icazə verilirdi və ananın əsas vəzifəsi qızlara uşaqlıqlarından davranış qaydalarını və onlar üçün qoyulmuş məhdudiyyətlər haqqında öyrətmək idi. Çox erkən yaşda qadınlara ideal olmaq öyrədilirdi. Başqa bir kiçik personaj və digər qadın personajlardan bəlkə də daha çox əhəmiyyətsiz hesab olunan Miss Kilmandır. Alman əcdadlarına görə almanlara rəğbət bəsləməkdə şübhəli bilinən Miss Kilman öz işini

itirir, bəlkə də bu səbəbdən ətrafdakı hər kəsə və hər şeyə kin bəsləyir. İndi o, amansız taleyi ilə Elizabeti, Klarissanın qızını tərbiyə etməklə təsəlli tapır, lakin onunla Klarissa arasında qarşılıqlı bir ədavət var. Miss Kilmanın Klarissaya qarşı nifrət hissinin səbəbi isə Klarissanın həyatını məhv edən patriarxal cəmiyyətin bir hissəsi olduğuna inanmasına əsaslanır və buna görə də onun özü kimi bədbəxt olmasını istəyir. O, öz peşəsinə sahib və həyatı üzərində tam səlahiyyətə malik olan Vulfun yaratdığı başqa bir feminist personaj kimi qəbul edilə bilər. O, cəmiyyətin ayaq izlərini izləməyən liberal bir qadın kimi təsvir edilir.

Başqa bir məqam da ondan ibarətdir ki, Vulf dövründə müstəqil olan qadınlar kişi kimi adlandırıldı ki, bu da qadınlar üçün müsbət keyfiyyət hesab olunmurdu. Çünki kişilər üçün qadın xüsusiyyətləri qadını idarə etmək onun üzərində öz nizam-intizama sahib olmağa kömək edən amil hesab olunurdu. Buna baxmayaraq, Doris o mərhələdə adi bir qadın kimi təkcə gözəlliyinə deyil, təhsilinə və siyasi mövqeyinə də əhəmiyyət verən rasional qadını təmsil edir. Bundan əlavə, Vulf gender problemi ilə bağlı ümumi anlayışın genişlənməsinə, o cümlədən qadınların cəmiyyətdə və ədəbi sahələrdə mövqe tutmalarına dəstək göstərmişdir.

Nəticə etibarı ilə, Virciniya Vulfun xanım Dalloveydəki əsas məqsədi qadınların obyektivləşdirilməsini təmsil edən çoxlu xarakterlərə malik cəmiyyətin tam formada təsvir edilməsidir. Onun yazıları vasitəsilə cəmiyyətin özəl və ictimai sahədə adət-ənənələrə görə necə ayrıldığını ayırd edə bilərik. Hansı ki, o dövrdə bir cinsin haqqı kimi qəbul edilən şey digər cinsin şərəfini aşağılayırdı. Qadınlar məişət məsələlərini həll etmək üçün evdə yaşamağa, kişilər isə çöldə döyüşməyə məcbur olublar.

"İntizam və cəza" əsərində Foukolt (1979) ruhu məhbusun bədənini formalaşdırmaq üçün iqtidarın əlində olan alət kimi araşdırır. O qeyd edir: "Ruhun illüziya və ya ideoloji  olduğunu söyləmək düzgün olmazdı. Əksinə, o mövcuddur, bir reallığa malikdir, daimi olaraq bədənin ətrafında, üzərində, daxilində fəaliyyət göstərməsi ilə əmələ gəlir." [11. s172] Xristian təlimində bədənin ruhun həbsxanası olduğu deyilsə də, Foukolt ruhun bədənin həbsxanası olduğunu iddia edir. Klarissa öz bədənini patriarxal toplumun diktələrinə tabe olmağa məcbur hiss edir.

Üstəlik, xanım Dalloveydə patriarxal cəmiyyətin qaranlıq və alçaldıcı mahiyyəti personajlar arasında təsvir edilən münasibətlər vasitəsilə ötürülmüşdür. O, kişi və qadınların sosial rolları arasındakı fərqə diqqət yetirir. Kişi dünyası müharibə, güc və sözdə üstünlüklə formalaşıb, qadın dünyasının isə itaətkar və ənənəvi olması tələb edilir. Bununla belə, Virciniya Vulf qadınların kişi kölgəsi arxasında gizlənmək əvəzinə bu normalara qarşı mübarizə aparmalı və öz qadın kimliklərini qazanmalı olduqları mesajını verir. O, kişilərin qadının həyatına əvvəldən hökmranlıq etdiyini və bu onların vəziyyətini acınacaqlı hala gətirdiyini və bunun heç vaxt bitməyəcəyini təsvir edirdi. Və bu zəncirvari şəkildə davam edəcəkdi: dünən atası və qardaşı, bu gün əri, sabah oğlu. Bu romanda kişilərin qadının irəliləyib inkişaf etməsinə qarşı qaramsar bir baxış tərzi var.

Burada kişilər qadınları alçaldır və bu davranış tərzi qadının ən dərin hisslərinə enə bilir. Bu, onları geri qaytarılması mümkün olmayan bir çıxılmaza apara bilər. Qadınlara kişilərin arzularına görə ikinci cins və cinsi obyekt kimi yox, insan kimi baxılarsa, sağlam ailə və sağlam övladlar yetişəcək. Vulf qadınları bu roman vasitəsilə təhsilli biri olmağa təşviq edir. Klarissa kimi özlərini evdə saxlayanda və xarici aləmlə əlaqələrini azaldanda kimliklərinə ikinci dəfə laqeyd qalmış olurlar və bu, kişilərin dominant olduğu cəmiyyət üçün əlverişli şərait yaradır.

## 2.2 “Mayaka doğru” əsərində despot rejimin yıxılması

Mayaka doğru Virciniya Vulfun avtobioqrafik romanı hesab olunur və o bu kitabda bəzi avtobioqrafik şərhlərini verir. Virciniya ailəsi və dostları ilə birlikdə həyatını formalaşdıran illərini mayaka bənzəyən olan "Talland House"da keçirirdi. Onlar hər yay 'Talland House'a baş çəkirdilər. Onun burada keçirdiyi şən və sevgi dolu yeniyetməlik illəri bir sözlə uşaqlıq xatirələri həyatına geniş şəkildə təsir göstərir və onun yaradıcılığının əsas mənbəyinə çevrilir. Əsərin səthi analizində, Mayaka doğru tətildə olan bir ailənin impressionist təsviri kimi verilib. “Kitabda Vulf şüur

axını və müxtəlif perspektivlərdən istifadə etməklə evlilik, valideynlik duyğusu, uşaqlıq, mənlik və gender mövzularını daha geniş şəkildə araşdırır. ” [1. s22]

Baxmayaraq ki, Vulf, heç vaxt özünü feminist adlandırmasa da, əsərlərində güclü feminist düşüncələr var. Tarixi bir analiz etsək Platonun, Şekspirin və Aristotelin kitablarında patriarxal düşüncəni sezə bilərik. Platon tanrıya iki şeyə görə şükür edir: qul olaraq doğulmadığına və qadın olaraq doğulmadığına görə. O düşünürdü ki, kişilər təbiətcə üstün, qadın isə aşağı səviyyədədir, kişi hökm edir, qadın isə tabe olur. Aristotel isə - qadın materiyadır nəticədə isə kişi çoxalmada böyük rol oynayan; qadın isə sadəcə onun nəslinin passiv davam etdiricisidir.

*(.. Zəiflik, sənin adın qadındır )* cümləsi ilə Şekspir, *(...Təbii ki qadınların bizim köləmiz olması nəzərdə tutmuşdu... onlar bizim mülkümüzdür... qadınlar üçün bərabərlik tələb etmək nə də axmaq fikirdir)* fikri ilə Napolyon patriarxal düşüncənin toxumlarını illər öncədən əkmişdir. Feminizm isə məhz bu cür patriarxal baxışlara qarşı ortaya çıxdı. Feminist tənqid mədəniyyət və ədəbiyyata istiqamətlənmiş müxtəlif yanaşmaları birləşdirir.

Mayaka doğru kitabı tipik ingilis ailənin yaşam tərzinin poetik tədqiqidir. Roman Remzi ailəsi ətrafında cəmlənir. Cənab Remzi hərkəs tərəfindən hörmət edilən, lakin qocalmış elm xadimi, hökmran ata və ərdir. Onun həyat yoldaşı xanım Remzi isə ideal ana, arvad və ev sahibəsidir, o cənab Remzinin vəziyyətini yaxşılaşdırmaq, uşaqlarının qayğısına qalmaq, əyləndirməklə məşğuldur.

Mayaka doğru kitabında Vulf, öz anası Culiyanın əsasında Xanım Remzi obrazını yaratdı. Xanım Remzi də Culiya kimi tənha idi və Culiya da Stivenin evini gözəl şəkildə idarə edirdi. O, Stivenə qarşı qayğı və rəğbət bəsləyirdi. Baxmayaraq ki, Virciniya qadınların cəmiyyətdə "mükəmməl qadın" və ya "evdə mələk" rollarını rədd edirdi.

Cənab və xanım Remzi və səkkiz övladından ibarət Remzi ailəsi yaylarını gənc rəssam Lili Brisko, akademik Çarlz Tansli, Cənab Bankes və nişanlanan cütlük : Paul Rayley və Minta Doyle daxil olmaqla bir necə qonaqlarını dəvət etdikləri yay evlərində keçirmək qərarı alırlar. Roman ailə üzvləri arasında mayaka olan səyahətin müzakirəsi ilə başlayır; xanım Remzi və onun kiçik oğlu Ceyms mayaka getmək

istəyərkən, cənab Remzi və evdə qonaq olan Çarlz Tansli hava şəraitinə görə buna etiraz edirlər. Roman cənab Remzinin iki uşağı Ceyms və Kem ilə birlikdə mayaka olan səyahətləri ilə başa çatır və aradan on il keçir və xanım Remzi, oğlu Endryu və qızı Pru ölür. Roman üç hissəyə bölünür. Birinci hissədə ailənin tətili və qonaqları ilə münasibətləri təsvir olunur. İkinci hissə digər hissələrdən çox qısadır; gəlib keçən zaman hissini ifadə edir. Son hissə isə mayaka doğru olan səyahətlə başa çatır.

Mayaka doğru kitabında Vulf, qadınlar qarşı açıq-aşkar bərabərsizliyin mövcud olduğu cəmiyyətdə öz yerlərini və hüquqlarını tapmaqda çətinlik çəkən iki qadın, yəni xanım Remzi və Lily Brisko haqqında hekayəni nəql edir. Mətndə biz Vulfun Viktoriya Qadını və Yeni Qadının müxtəlif tərəflərini üst-üstə qoyduğunu görürük.

Əsərin mərkəzində olan iki qadın personaj, Lili Brisko və Missis Remzi üzərindən yola çıxan Virciniya Vulf gender ayrı-seçkiliyi termininin iki fərqli ideologiyasını təqdim edərək bir baxış bucağından digərinə keçid edir. Vulfun qəsdən iki ziddiyyətli personaj yaratdığı düşünülür. Kitabda əsas diqqəti Lili Brisko və xanım Remziyə yönəltməklə, Vulf özünə eyni cəmiyyətdə yaşayan iki qadının fərqlilikləri sayəsində düşüncələrini tam çatdırmaq şansı yaradır. Vulf bir personajla digərini qarşı qarşıya qoymuş görünsə də o, davamlı olaraq başqa subyektlərə, obyektlərə, cisimlərə və mühitlərə işarə edir və fərqliliklər bu prosesdə gender məsələsinə dair baxışları baltalayır. [23. s77]

Vulf müasir cəmiyyətdəki mövcud olan üstün və ənənəvi gender stereotiplərini tənqid edir. Mayaka doğru əsəri, kişi və qadın zehni arasındakı fərqləri vurğulayaraq, kişi xüsusiyyətlərinin dünyadakı sosial rolları necə müəyyən etməsində vacib vasitə olduğunu təqdim edir. Vulfa görə qadınlar təxəyyül güclərindən istifadə edərək, onlara sosial olaraq verilən rollardan kənara çıxmaq imkan əldə edə bilərlər .Kişi və qadın arasındakı mövcud ziddiyyətlər cənab və xanım Remzi arasındakı münasibəti tam şəkildə simvollaşdırır.

"İncəsənət və qəzəb" adlı əsərində Ceyn Markus Freydin arqumentini müzakirə edərək mənlik və şəxsiyyət duyğusunun yalnız qəzəblə əldə edilə biləcəyini deyir. Evin Mələyi olan xanım Remzi, Viktoriya cəmiyyətində (patriarxal sistemdə)

qadınlara verilən başlıq idi və onların qəzəbini görməzdən gələn mükəmməl bir ideoloji model idi.

Həmişə müsbət hisslərlə yad olunan bu mələklər, qadınlarda qəzəb və ya məyusluq kimi narahatedici və ya bezdirici hisslərin olmadığını təbii şəkildə qəbul edir. Bütün feminist yazıçılar, o cümlədən Virciniya Vulf inanırdı ki, qəzəb hissindən məhrum qadınlarda nə seçim azadlığı və tamamlanmış şəxsiyyət hissi yoxdur. Vulf Viktoriyan cəmiyyətində kişilərdən fərqli olaraq qadınlara aşağı rəftar edən bu cür münasibəti tənqid edirdi. Feminist nöqteyi nəzərdən tənqidçi Pamela Gannon yazırdı ki: " Vulfun adı tez-tez feminizm və feminist problemlərlə sinonim hesab edilsə də, o, bütün feminist tənqidçilər tərəfindən problemlərinin alfa və omeqası kimi qəbul edilməmişdir. " [19.s 1]

Bu romanda Vulf oxucuya qadınların ailədəki rolunun nə olduğu sualını verməklə düşünmələrinə səbəb olur. Nəticə etibarilə Vulf ideal qadını təmsil etmək üçün Lili obrazını yaradır və bunun əksinə olaraq xanım Remzi "evdəki mələk" kimi təsvir edilmişdir. Virciniya Vulf "Qadınlar üçün peşələr" adlı essesində Evin Mələyi haqqında daha bir mühüm təsviri verir:

*"( . . . Evdəki Mələk deyəndə tam olaraq nəyi nəzərdə tutduğumu anlamaya bilərsiniz. Onu bacardığım qədər qısaca təsvir etmək istəyirəm. O, hədsiz dərəcədə cazibədar idi. O, tamamilə təmənnasız biri idi. Ailə həyatının çətin problemlərinin həllində mükəmməl idi. Bir sözlə, sadə və səmimi idi ki, heç vaxt öz düşüncə və ya arzusu yox idi, lakin həmişə başqalarının düşüncə və arzularına rəğbət bəsləməyi üstün tuturdu. . . O günlərdə - Kraliça Viktoriyanın dövründə hər evin öz mələyi var idi. Mən yazmağa başlayanda. . . arxamdan yavaşca pıçıldadı: Əzizim, sən gənc qadınsan. Bir kişi tərəfindən yazılmış bir kitab haqqında yazırsan. Anlayışlı ol; incə ol; yaltaq ol; aldat; cinsimizin bütün sirr və hiylələrindən istifadə et... )" [35.p235]*

Romanın əvvəlində Lili xanım Remzinin portretini yaratmağa çalışır, lakin ziyarətçiləri üçün başını tərpədən xanım Remzinin portretinin çəkilməsi çəkin prosesə çevrilir. Bu xanım Remzinin xarakterinin həqiqətən nə qədər mürəkkəb olduğuna dair bariz bir görüntü və önizləmə yaradır. Xanım Remzi kitabda oxucular və digər personajlar tərəfindən ideallaşdırılıb və mifləşdirilib və heç bir şəkildə tənqid

olunmur. Xanım Remzi əsərdə ənənəvi Viktoriya mələyi kimi xidmət edir lakin göründüyündən çox daha mürəkkəb və eyni zamanda bir neçə təbəqədən ibarət bir şəxsiyyət kimi təqdim edilir. Zəif və itaətkar Viktoriya qadını ideyası xanım Remzinin əri ilə münasibətində görmək olar.

Britaniya tarixində əzəmətli dövr kimi hesab edilən Viktoriya dövründə, evlilik qadınlar üçün bir növ sosial yük kimi görünür və burada kişi dominant və ailənin çörək qazananı kimi qəbul edilir və qadın kor-koranə onu dəstəkləməli və qayğısına qalmalı idi. Cənab Remzi və xanım Remzi Viktoriyan evliliyinin tipik modelidir. Remzi cütlüyü cəmiyyətin kriteriyalarına uyğun olaraq elə həmin cəmiyyət tərəfindən ənənəvi olaraq müəyyən edilmiş gender rollarını təsvir edir. Cənab Remzi təkcə akademik arenada deyil, həm də ailə fərdləri tərəfindən hörmət edilən obrazdır. Xanım Remzi isə saf, məsum, zərif, cazibədar, simpatik və fədakar xüsusiyyətlərinin daşıyıcısıdır.

Bununla belə, kitab boyunca xanım Remzi cənab Remzini razı salmaq üçün sadəcə onun eşitmək istədiklərini deyir. Mətn əsnasında bir neçə dəfə xanım Remzi hiss edir ki, o, ərinə əsl hisslərini deyə bilmir və xanım Remzi ərinə ancaq onu sevindirəcək və ya arxayınlaşdıracaq cavablar verir. Bir tərəfdən, bu, onun ona olan həqiqi sevgisindən xəbər verir, amma eyni zamanda o heç vaxt öz kimliyini tam şəkildə hiss edə bilmir. Onların evliliyində onu həqiqətən xoşbəxt etməkdən saxlayan nə isə gizlənir.

Evin mələyi Vulf tərəfindən yaradılmış ümumiləşdirilmiş bir termindir. Mələk anlayışının bir neçə qatı var ki, bu da xanım Remzinin xarakterini həm mürəkkəb, həm də realist hala çevirir. Sonda bu mələyi öldürməsinə baxmayaraq Vulf Xanım Remzi obrazını yaratmaqla evin mələyi təsvirini tam şəkildə yerinə yetirdi. Vulf öz personajını gözəl təsvir edib, o, təkcə mükəmməl bir həyat yoldaşı deyil, həm də məsuliyyətli bir anadır. O dövr üçün qadınlara məxsus edilən ənənvi işlər olan başqalarının qayğısına qalmaqla, toxumaqla, toxuculuq ilə həyatını keçirir. Xanım Remzi nəsə toxuyaraq , qadının ənənəvi xarakterini nümayiş etdirir.

Burada xanım Remzi və Lili arasında nəzərəçarpacaq ziddiyyəti müşahidə edə bilərik. O, toxuculuqda, Lili isə rəssamlıqla məşğul olur. Əslində onun bu

məşğuliyyətini başqa cür də şərh edə bilərik. O, həmişə ailə üzvləri üçün ahəngdar atmosfer yaratmağa çalışır. Bu, patriarxal sistemdə kişilər tərəfindən icazə verilən özünüifadə vasitəsidir, çünki qadınlar öz tarixlərini yaza bilmədiklər hətta bunu istəmədikləri üçün vaxt toxumağa əl atırlar.

Xanım Remzinn əlli yaşı var idi və ətrafda gözəlliyi ilə məşhur idi. Həyat yoldaşından fərqli olaraq fədakardır bir obrazdır və enerjisini başqalarına xidmət edərək  daha da artırır. O, ərinin despotizminin könüllü qurbanı olaraq təsvir edilir. O, onun həddindən artıq kobud olmasına etiraz etmir və hətta bunun onun üstünlüyünün göstəricisi kimi qəbul edir. Bütün qadınların evliliklə tamamlana biləcəyni düşündüyü üçün yaşadığı itaətkarlığına qarşı üsyan etmidi. Qərb gözəlliyinin və doğurqanlığın simvolu olaraq, kişilər tərəfindən hər zaman pərəstiş edilən və eyni zamanda onların sərt tələbləri və davranışları tərəfindən əzilən Xanım Remzi zamanla patriarxal cəmiyyətin yaranması və formalaşması üçün yavaş-yavaş alətə çevrilir.

Mələyin yəni xanım Remzinin gücsüz kimi təqdim edilməsinə və qəbul edilməsinə baxmayaraq, xanım Remzi öz həyatı haqqında düşünmək qabiliyyətinə malikdir. O, mətndə bir neçə dəfə  aydın olunduğu kimi, öz hüquqları və şəxsiyyəti haqqında düşünməyi bacarır. Bununla belə, o, bu fikir və hisslərini başqa insanlara ifadə etmək istəmir və müəyyən dərəcədə ənənəvi gender rollarını dəstəkləyir.

Xanım Remzinin əksinə olaraq, başqasının hissləri ilə maraqlanmayan, başqasının zövqünün onun  üçün heç vaxt maraqlı olmadığı realist, rasional və incə duyğulardan məhrum bir insan olan cənab Remzi isə - mayaka getmək üçün havanın yaxşı olacağı ehtimalına - amma yaxşı olmayacaq deyə cavab verirdi. Xanım Remzi ərinin sərtliyindən narazı olsa da, ərinin sərtliyinə qarşı bir kəlmə belə deməyə cəsarət etmir  və onun bu davranışları hqqında - Cənab Remzi yəqin ki, diqqət istəyir, o, istəyir bilsin ki, o, onu sevir, ya da o, onun üçün ən vacib insan olduğunu, oğulları Ceyms də daxil olmaqla, hamıdan daha vacib olduğunu eşitmək istəyir kimi cümlələrlə özünə təskinlik verirdi. Lakin Remzi ailəsi ölənə qədər həmin mayakı ziyarət edə bilmir. Bu gecikmə, kişinin evdə qadın üzərində iqtidar sahibi olduğunu və qadının səsinin kişilər tərəfindən diqqətdən kənarda qaldığını və boğulduğunu

simvollaşdırır. Romanın lap əvvəlindən cənab Remzi patriarxal ailə quruluşunda özünün hökmranlığını və sərt üslubunu nümayiş etdirir.

Virciniya Vulf  Mayaka doğru əsərində qadının azadlıq, muxtariyyət və şəxsiyyət əldə etmək uğrunda mübarizəsini təqdim edir. Lakin bu istək çox vaxt patriarxal cəmiyyət tərəfindən əngəllənirdi. Roman boyu kişi və qadın ideologiyaları arasında qarşıdurma var. Yazıçı qadınların ənənəvi olaraq onlara təyin olunmuş rollardan başqa rollar almasına icazə verilməyən kişi dəyərlərinin hakim olduğu cəmiyyətin diktələrini tənqid etmək üçün qeyri-konformist personajdan, Lili Briskodan istifadə edir. Bu qadın xarakteri şəxsiyyət və muxtariyyət əldə etmək üçün kişilərin cəmiyyətdəki dominant mövqeyinə qarşı çıxmaqla feminist dəyərləri ideal şəkildə təmsil edir. Və həqiqətən də romanın sonunda Lili öz rəsmini tamamlayır ki, bu da onun azad qadın rəssam kimi şəxsiyyətini formalaşdırmağa kömək edir.

Virciniya Vulf Mayaka doğru əsərində qadının azadlıq və şəxsiyyət əldə etmək uğrunda mübarizəsini təqdim edir. Lakin onların bu istəyin qarşısı həmişə patriarxal cəmiyyət tərəfindən alındı. Virciniya Vulf qadınların onlara təyin olunmuş rollardan başqa rollar almasına icazə verməyən kişi dəyərlərinin hakim olduğu cəmiyyətin diktələrini tənqid etmək üçün qeyri-konformist personajı, Lili Briskonu yaradır. Bu qadın xarakteri şəxsiyyət və azadlıq əldə etmək üçün kişilərin cəmiyyətdəki dominant mövqeyinə qarşı çıxmaqla feminist dəyərləri ideal şəkildə təmsil edir. Və həqiqətən də romanın sonunda Lili azad qadın rəssam kimi şəxsiyyətini formalaşdırmağa kömək edən rəsmini tamamlayır.

Cəmiyyətin onlara tədbiq etdiyi məhdudiyyətlərin nəticəsi olaraq, qadınlar patriarxal dəyərlərin hakim olduğu cəmiyyətdə şəxsiyyət axtarışına çıxır. Ənənəvi olaraq, evli qadınlar ərlərindən asılı hesab olunurdulr. Onlara uşaqlarına baxmaq və ev işləri görmək üçün məsuliyyət duyğusu aşılanmışdır və ənənəvi dəyərlər üzərindən qurulmuş ailə həyatında qadının müstəqilliyinə və azadlığna nail olmasından söhbət belə gedə bilməzdi. Lakin xanım Remzi üçün mənlik hissini kəşf etmək vacib idi. Mayaklara doğru kitabında iki qadın personaj, xanım Remzi və Lili, hər iksi mənlik duyğusunu əldə etmək ehtiyacını hiss edirlər. Bu məqsədə çatmaq üçün atmalı

olduqları ilk addım özünü dərk etmək və öz əhəmiyyətini anlamaqdır. Bununla belə, bunu etmək o qədər də asan deyildi.

Sabit şəxsiyyət və özünə qarşı dəyər hissi formalaşdırmaq prosesi bir qadın üçün necə çətin olduğu bu kitabda tam formada təsvir edilir. Xanım Remzinin fədakarlığı onun qarşısına qoyduğu məqsədlərə çatmasında və özünə dəyər hissini artırmaq səylərini zəiflədir. Patriarxal cəmiyyətin dəyərlərindən və qaydalarından razı görünməsinə baxmayaraq, xanım Remzi gizli şəkildə daxili mənliyinə nəzər salır və itirilmiş şəxsiyyətinə bu şəkildə sual ünvanlayır:

*" But what have I done with my life?. " [36, s.97]*

*(...Amma mən həyatımda nə etmişəm?)*

Bir müddət sonra çarəsiz olduğunun fərqinə varan xanım Remzi, daha nə uşaq, nə də ərinin qayğısına qalmaq istəyir. Ətrafındakı insanlar üçün özünü qurban verməyi dayandırmalı olduğunu hiss edir. Xanım Remzi özü üçün rahatlıq əldə edə biləcəyi və şəxsi ehtiyaclarını yerinə yetirə biləcəyi şəxsi məkan yaratmaq istəyir. Bir neçə saniyəlik olsa belə azad olmaq hissindən aldığı həzz, onu xoşbəxt etmək üçün kifayət edir və Virciniya Vulf bu hissləri: "Hələki onun heç kimi düşünməsinə ehtiyac yoxdur. O, özü ola bilərdi. Və indi tez-tez ehtiyac duyduğu şey düşünmək idi, hətta heçnə düşünməmək- Susmaq və tək olmaq. Toxumağa davam etsə də, dik otursa da, özünü belə hiss edirdi" .

Digər tərəfdən onun ailəsinin ehtiyaclarını ödəmək, uşaqlarına qulluq etmək, evinə dəvət olunan qonaqları qəbul etmək kimi məişət işləri onun məişət yaradıcılığını üzə çıxarır. Məsələ burasındadır ki, hətta sadəcə ev işləri ilə məşğul olsa da, qadının elmi və ya bədii ambisiyaları olmasa da, müəyyən yaradıcılıq səviyyəsinə çatmaq imkanı var. Beləliklə, xanım Remzi öz yaradıcılığını yalnız ev işlərinə tətbiq etməklə şəxsiyyətə nail olmaq yolunda böyük bir addım atır. Virciniya Vulf xanım Remzinin şam yeməyini təşkil etmək üçün qoyduğu yaradıcılığı bir sənət əsəri ilə qarşılaşdırır. Xanım Remzi yaşadığı xaosdan nizama keçdiyi üçün şam yeməyi səhnəsi müəyyən mənada romanın əsas mərkəzini təşkil edir. Tədqiqatçılara görə Lili ilə oxşar şəkildə xanım Remzi də rəssam sayıla bilər. O, onu rəssam bir ana,

harmoniyaların mahir yaradıcısı və hazırcavablığı ilə ətrafındakı mübahisələri həll edən danışıqçı kimi təsvir edir.

Xanım Remzi məişət sahəsində uğur qazana biləcəyini sübut etmək istəyir və buna görə də mükəmməl bir şam yeməyi təşkil etmək üçün əlindən gələni edir. Viktoriya dövründə evdə mükəmməl atmosfer yaratmağı bacaran qadınlar ideallaşdırılır və xanım Remzi nə vaxtsa bunu bacarmaq istəyirdi. Xanım Remzi həqiqətən xoşbəxt və tam qadın olmağın yeganə yolunun bu olduğuna inandığı üçün gözləntiləri boşa çıxarmaq istəmirdi.

Mayaka doğru kitabında məişət həyatında yaradıcılıq ilə incəsənətdə yaradıcılıq arasındakı fərqə diqqət yetirilir. Remzi ailəsinin bütün üzvləri ənənəvi evliliyin məhdudiyyətlərindən müxtəlif dərəcədə əziyyət çəkirlər və bu onların yaradıcılığına mənfi təsir göstərir. Remzi ailəsinin evində qonaq olan Lili Brisko bir sənətçi kimi ambisiyalarını qorumaqla evdar qadın olmaq arasında seçim etməli olur.

Xanım Remzinin Lili Brisko ilə qarşılaşması onu sənətindən və rəssamlığından əl çəkməyə təşviq etdikdə ideyası ilə başlayır. Bir tərəfdən, xanım Remzi həyatda yeganə seçimin evlənmək olduğuna inansa belə eyni zamanda Lilinin müstəqilliyinə olan heyranlıq duyğusunu gizlədə bilmir. Lakin eyni zamanda heç kimin onunla evlənməyəcəyindən və onu xoşbəxt etməyəcəyindən qorxur. Xanım Ramzeyin fikrincə, müstəqilliyin və evliliyin eyni anda olması mümkün deyil.

**Mələyin öldürülməsi –** Romanın ikinci hissəsində hadisələrin gedişatı kəskin şəkildə dəyişir. Bu bölmədə, biz yalnız bir evin və ya bir ailənin deyil, bütün sinfin tədricən çürüməsini müşahidə edə bilərik. Xanım Remzinin ölümünün heç bir təfərrüatı qeyd olunmur və bu oxucuda güclü bir boşluq hissi yaradır. Xanım Remzinin ölümü Viktoriya mələyinin ölümünü göstərir.

Bu romanda Vulf ideallaşdırılmış feminist obraz kimi görünən Lili obrazını yaradıb və Lili nəinki kişi hegemonluğuna meydan oxumaq hətta öz müstəqil fərdiliyinə nail olur. O kitabın sonunda qadın rəssam kimi həqiqətən azad olmuş ruhunu simvolizə edən rəsm əsərini bitirir. 19-cu əsrdən 20-ci əsrə keçidi müşahidə etsək, kişilərin nəzarətində olan zəncirlərindən çıxıb öz bərabərlilik hüquqlarını əldə

etmək üçün mübarizə aparan kiçik bir qadın qrupunu görə bilərik Həmin qadınlar arasında Lili də azad edilmiş qadın qrupunun nümayəndəsidir.

Romanın birinci hissəsində, Lilini çaşqın şəkildə görür və ona təqdim edilən əhəmiyyətli qadın kateqoriyaları ilə özünü eyniləşdirə bilmir. Xaos onun ağlını idarə edir, çünki təsdiqlənmək istəyir, lakin hər dəfə rədd edilir. İdeal Viktoriyan qadını kimi təsvir olunan xanım Remzi ilə müqayisədə, Lili Brisko yeni müasir qadınının simvoludur. O subay qadın kimi ona qoyulan gözləntilərə qarşı çıxan bir xarakterdir. Vulf kişi və qadın kimliyi arasında zahirən keçilməz sərhədlərə meydan oxudu və Lili Briskoya öz peşəsini və bu peşənin içində səbirli ola biləcək qədər güclü bir mənlik hissi verdi. Xanım Remzi və Lily Brisko, həyatın fərqli tərəflərində təsvir olunsalar belə Virciniya Vulfu maraqlandıran sualların cavabı olaraq çıxış edilər:

Lily-nin fikrincə, evlilik anlayışı xanım Remzinin düşündüyündən çox fərqlidir, çünki onun evliliyi qadınların şəxsi inkişafına və nailiyyətlərinə mane olan boyunduruq kimidir. Tədqiqatçıları fikrincə Virciniya Vulf Lilidən özünün bəzi hissələrini ifadə edə biləcəyi bir fiqur kimi istifadə etmək istəyirdi. (Mepham 65). Lilinin inkişafı da bir çox cəhətdən Vulfun özünün inkişafı ilə paraleldir; hər ikisi müharibədən sonrakı dövrdə yeni bədii formalar yaratmaq niyyətində idilər, lakin hər ikisi bunun gətirəcəyi dərin itki hissini qəbul etməli idi. [27. s87]

Aydındır ki, Lili də xanım Remzi kimi "evdəki mələk" imajını qəbul etmir və əslində Lili Virciniya Vulfun demək istədiklərinin güzgüsü kimi çıxış edir, onun vasitəsilə  Vulf, əgər qadınlar öz dəyərlərinə sahib olmaq istəyirlərsə, evdəki mələyi öldürməkdən əlavə bir fərd olaraq öz yaşadıqları təcrübələr haqqında həqiqəti söyləməlidirlər fikrini təklif edir .Bu düşüncəni qəbul edən Lili əslində, öz daxilində həqiqəti söyləmək ilə rəssamlıqla məşğul olmasını bərabərləşdirdi. Çünki Lilinin incəsnətlə məşğul olmağı seçməsi sabit dəyərlərə hakim olan cəmiyyətə uyğun deyildi, çünki incəsənət sadəcə kişilərə xas idi. Belə bir sosial təzyiq altında Lilinin dəyərlərini həyata keçirməsi prosesi çətinliklərlə dolu idi.

*(...Qadınlar rəsm çəkə bilməz, qadınlar yaza bilməz)* (36)

Mayaka doğru kitabında cənab Tansli qadınlar rəsm çəkə bilməz, qadınlar yaza bilməz deyərk, qadınlara hansı ev işlərinin və peşələrin uyğun görüldüyü barədə

fikirlərini bildirir. Bildiyimiz kimi, iyirminci əsrin əvvəllərində qadınların incəsənətlə məşğul ola bilməyəcəyinə dair geniş yayılmış bir inanc var idi və bu kimi ifadələr həm qadınlar, həm də kişilər arasında tez-tez dilə gətirilirdi. Adətən o, Çarlz Tanslinin Qadınlar yaza bilməz, qadınlar rəsm çəkə bilməz fikrindən təsirlənir və bu onun seçdiyi peşədən yayınmasına səbəb olurdu. Patriarxaldan gələn istehzalı fikirlər onun inamını sarsıtsa belə, o, ətrafındakı artan təzyiqə heç vaxt asanlıqla boyun əymir. Mütərəqqi bir qadın olaraq, o, bu cəmiyyətə qarşı mübarizədə əzmkar rola bürünür və özünü tanımaq üçün bütün divarları darmadağın etməyi seçir..

*"(...O tez-tez özü haqqında düşünürdü . . . cəsarətini və əzmini qorumaq üçün təzyiqlərə qarşı mübarizə aparırdı. Və o zaman da o soyuq və küləkli mübarizə yolunda, rəsm çəkməyə başlayanda özünü başqa şeylər haqqında, öz yetərsizliyini, əhəmiyyətsizliyini haqqında düşünməyə məcbur edirdi)." [36.s14]*

Xanım Remzinin fədakar həyatını Lilinin özünü doğrultmaq uğuru ilə müqayisə etsək bu, adi Viktoriyan qadınlarını patriarxal cəmiyyət üzərində qələbə çalan müasir azad edilmiş qadınla əvəz edən yeni qadınların olduğunu göstərir. Lili xanım Remzinin şəklini sağ ikən çəkməyə başlamışdı, amma ölənə qədər bitirə bilmədi, Lili xanıma qarşı olan mürəkkəb duyğularından dolayı onun portretini bitirməkdə çətinlik çəkdi. Xanım Remzinin xatirələrini canlandırmaq üçün on ildən sonra o, cənab Remzinin evinə qayıdır və onun sağ olduğu günləri xatırlayır. O, kətanın qarşısında oturub hadisələri müşahidə edir və Lili xanım Remzinin obrazını qadın nöqteyi-nəzərindən düşünməyə başlayır.

Xanım Remzinin əslində patriarxal cəmiyyətin ədalətsizliyini anladığını, lakin heç vaxt hər hansı bir haqsızlıqdan və ya ədalətsiz davranışdan şikayətlənmədiyini, amma əslində ailəsinə və başqalarına hüzur və sevgi bəxş etmək üçün daha çox səy göstərdiyini anlayırdı. Xanım Remzini xarakterini bütün bir portret kimi anladıqdan sonra əslində onda olan ən dəyərli şeyin harmoniya olduğunu görür və son dəfə kətanın qarşısında oturub rəsmi tamamlayır.

Lili və xanım Remzi fərqli yollarla belə olsa hər ikisi əsərdə rəssam kimi xidmət edirlər. Xanım Remzinin sənəti tanınmayan və sənət sayılmayan növ hesab edilsədə, xanım Remzi bu sənəti çox vacib hesab edir. Otaqları səliqədə saxlayan,

insanları söhbətə salan, süfrələri bəzəyən, çiçəkləri düzəldən odur. Lilinin rəsmləri ilə müqayisədə xanım Remzinin sənəti keçicidir və sonunda yox olacaq lakin Lilinin sənəti heç vaxt yoxa çıxmayacaq. Lili üçün cəmiyyət tərəfindən təsdiqlənmək vacib idi, çünki o sadəcəYeni Qadını və ya Viktoriya mələyini təmsil etmir. Lili gözəllik anlayışını və bəlkə də daha önəmlisi olan qadın olmağın nə demək olduğunu dekonstruksiya edir.

Xanım Remzinin və Lili Briskonun əsas məqsədləri yaşadıqları cəmiyyətlə ziddiyyət təşkil etməyən "mən"i tapmaqdır. Lilinin Viktoriya cəmiyyətindən təsirlənməməsi qətiyyən mümkün deyildi. Vulf kitabda fərdləri deyil, patriarxal cəmiyyətin yaratdığı idealları və qaydaları tənqid edir. Hər iki personaj mövcud olduqları sosial quruluşdan təsdiq istəyir. Xanım Remzi patriarxal cəmiyyət tərəfindən mələk kimi təsdiqlənir. Lili özünü təsdiqlənmiş və cəmiyyət tərəfindən qəbul edilmiş, yaşadığı mədəniyyətə uyğun bir qadın kimi hiss etmək istəyir.

Vulf romanlarında qadın rolunu yenidən konfiqurasiya etməyin yollarından biri də qadını sıxışdıran mənbəni məhv etməkdə görür və Vulf əsərlərində gücünü itirən ata fiqurlarının təsvirlərini verməyi üstün tutur. Onun əsərləri açıq-aşkar patriarxal cəmiyyətin həyatdakı harmoniyanı pozduğunu göstərir. Onun qadın personajları patriarxal dəyərlərə qarşı öz dəyərlərini müdafiə etmək üçün həvəsli fiqurlar kimi təsvir olunur. Ailəsini idarə edən avtoritar ata fiquru romanda açıq aşkar görünür və bu fiqur daim nəzarət edir və qərar verir. O davamlı olaraq problemləri həll edir və diqqət mərkəzində olmağa çalışır. Bununla belə, Vulfun qadın personajlarında kişi nüfuzunu sarsıtmaq və meydan oxumaq istəyini əks etdirir. Bu ata fiqurları fiziki olaraq əzilməslərdə, karnavallaşma zamanı istehzalı padşahlarda olduğu kimi, qadın personajların onlara məhəl qoymamaları nəticəsində mənəvi olaraq gücləri sarsılır.

Remzi ailənin atası olan cənab Remzi və cənab Remzinin tərəfdarı və pərəstişkarı olan Çarlz Tansli özlərini güclü cinsin nümayəndələri kimi ifadə etməyə və təsdiq etməyə çalışan fiqurlar kimi təsvir edilmişdir. Lakin hər iki obraz qadın obrazlar tərəfindən zəif, bəzən isə gülməli insanlar kimi üzə çıxarılır. Başqa sözlə desək, demək olar ki, onların nüfuzuna qarşı incə yumoristik üsullarla meydan oxunur.

Baxtınə görə əsas karnavalistik akt karnaval kralının saxta taclanması və sonradan tacının çıxarılmasıdır. Bu tərif ritual olaraq karnavala aiddir. Baxtin bildirir ki, ədəbiyyatda tacsızlaşdırma aktının mahiyyəti dəyişikliyin qaçınılmazlığına diqqət yetirməkdir. Padşahın tacının çıxarılmasına dair bu ritual aktının altında dünyanın karnaval duyğusunun əsası – dəyişim ölüm və yenilənmə pafosu yatır. Baxtin gülüşü tacsızlaşdırmanın mühüm komponenti kimi müəyyən edir .

Cənab Remzi nizamın və sabitliyin təcəssümüdür. Ənənəvi ata olaraq, o ailəsinin üzərində nəzarəti gücləndirməyə çalışaraq, ailə üzvlərini narahat edir. Baxtın ədəbi əsərlərdə bu cür davranışı özünün təyin etdiyi yüksəliş adlandırır. Karnaval məntiqi ilə personaj özünü başqalarından yuxarı qaldırır, bundan sonra qaçınılmaz aşağıya eniş baş verir və personajın tacının çıxarılması həyata keçir. Cənab Remzinin özünün bu cür yüksəltməsi yuxarıda qeyd etdiyimiz kimi onun kiçik oğlu Ceymsin mayak fənərini ziyarət etmək istədiyi və bu işdə xanım Remzi oğlunu dəstəklədiyi zaman repressiv ata fiquru kimi patriarxal mövqe tutduqda aydın olur. Bu səhnədəki pəncərə ideyası bəzi vacib simvolik mənaları ifadə edi. Pəncərələr və qapılar kimi obyektlər dünya ilə birləşməni, şəxsi mənlik və dünya arasında sərhədin yox olduğunu göstərir. Cənab Remzi pəncərənin qarşısındakı mayaka getmək istəmədiyini bəyan edir ki, bu da onun şəxsi dünyasını bölüşmək istəmədiyini göstərir. Çünki o sadə şəkildə ailəsi ilə birgə olmaq istəmir.

*...Cənab Remzi sırf varlığı ilə uşaqlarının sinələrində həyəcan və gərginlik yaradan hissdən ibarət idi; indi olduğu kimi, bıçaq kimi yalın, bir bıçaq kimi əyri, istehza ilə gülümsəyərək sadəcə oğlunu məyus etmək və özündən hər cəhətdən on min dəfə yaxşı olan arvadını ələ salmaqdan həzz alaraq*

*(James fikirləşdi). . . . ).*

Dar düşüncəli olması və fikirlərinin mürəkkəbliyi səbəbilə, cənab Remzi belə bir nəticəyə gəlir ki, qadınların yaradıcılıq qabiliyyəti yoxdur və onlar aşağı düşüncəyə malikdirlər. Qadınları aşağı bir varlıq kimi görmək meyli qadınlara Viktoriya dövrünün dəyərlərini hiss etdirir. Pamela Gannon Mazzuchelli cənab Remzi və cənab Tanzli haqqında araşdırmasında iddia etdiyi kimi, onlar özlərini

digərlərindən üstün hiss etmək üçün qadınları bu şəkildə təhqir edərək və ya əzərək ətraflarındakı qadınlara aşağı olduqarını hiss etdirtməyə çalışırlar.

Cənab Remzinin başqa insanların həzz axtarışına sərt etirazı Ceymsin mayaka etmək istəyini söndürür və oğlanın atasına qarşı nifrətini gücləndirir. Atasına qarşı şiddətli nifrət Ceymsi cənab Remzini öldürməyin bir yolunu təsəvvür etməyə blə vadar edəcək həddə çatdırır. Kitabı oxuyarkən bariz görünür ki, Ceyms atasına qarşı mənfi münasibətdə tək deyil, çünki digə uşaqlar da atalarına qarşı ikrah hissi ilə doludur. Qızı Cam, onun uşaqlığını zəhərləyən və acı fırtınalar törədən atasının amansız korluğu və tiranlığını unuda bilmir. Hətta romanın sonunda illər sonra uşaqlarını mayaklara aparanda belə, öz gücünü onlara göstərmək üçün bunu edir. Cənab Remzi hər bir şəraitdə ağıl, gerçəklik və sabitlik anlayışlarından yapışır.

Cənab Remzinin başqalarını idarə etmək meylinə baxmayaraq bu patriarxal fiqur xanım Remzi, Lili Brisko və rəvayətçi tərəfindən müxtəlif yollarla taxtdan saılnır. Vulfun şüur axını köməyi ilə xanım Remzinin düşüncələrində ərinin nüfuzunu sarsıldığını görmək mümkündür. Məsələn, cənab Remzinin hərəkətləri onun üçün zooparkdakı böyük dəniz aslanının balığını udduqdan sonra arxaya yıxıldığını və çəndəki suyun o yan-bu yana yuyulması üçün aşağı yuvarlandığını xatırladır. Xanım Remzi ərini dəniz aslanına oxşatsa belə o, yıxılan və boyun əyən, itaətkarlıq və zəiflikdən xəbər verən təslim olmuş bir dəniz şiridir. Onun ərinə qarşı münasibətində yumor hissi özünü bariz şəkildə göstərir, xanım Remzi artıq onu təhlükə kimi görmür. Həqiqətən də, xanım Remzinin onu dəniz aslanı kimi təsviri , Lilinin romanın sonuna doğru cənab Remzini sürgündəki kral kimi müşahidə etməsi ilə üst üstə düşür. Hər iki qadın, bu yumoristik yollarla onu təsəvvür edərək, ağıllarında avtoritet fiquruna gülmək gücünə malikdir. Və əslində kitbda qadın personajlar hökmranlıq edirlər, çünki onlar cənab Remzinin nüfuzuna və gücünə daxilən inanmırlar.

*(....O, Andryu yaşında olanda cibində peçenyedən başqa heç nə ilə bütün günü ölkəni gəzirdi və heç kim onun üçün narahat olmurdu və ya uçurumdan yıxıldığını düşünmürdü. O, yüksək səslə əgər hava yaxşı olarsa, bir günlük gəzintiyə çıxacağını düşündüyünü söylədi. . . . Bəli, dedi. Etiraz etməməsi onu əsəbiləşdirdi. O bilirdi ki,*

*o, heç vaxt bunu etməyəcək. Çünki cibində peçenyə bütün günü gəzə bilməyəcək qədər qocalmışdı. )(36)*

Bu nümundə, cənab Remzi həm oxucunun gözündə, həm də xanım Remzinin fikirlərində öz nüfuzunu itirir və yenə də cənab Remzinin özünü şişirtməsi və vəziyyətini dramatikləşdirməsi görünür. Əslində, bu cür fikirlər cənab Remzinin ciddi görünmək istəyini puç edir və onun fiqurunu istehzaya açıq bir obraza çevirir. İstehsasız gülüşü ilə xanım Remzi göstərir ki, cənab Remzi öz gücünü başqaları üzərində tətbiq etməyə nə qədər çalışsa da, o, xanım Remzidən müəyyən qədər ondan asılı olduğunu bilir və artıq onun hakimiyyətinə tabedir. Cənab Remzinin öz dahiliyinə əmin olmaq və ona rəğbət bəsləmək lazım olan bir insan kimi təsvir edilməsi onun başqalarından asılılığını ortaya qoyur və bu onun zəifliyini aşkar edir.

Cənab Remzi özünü avtoritet kimi təqdim etməyə çalışsa da, o, əsərin sonunda öz sərhədləri ilə üzləşir. Başqalarının öz nüfuzuna etinasızlığı ilə yanaşı, o da özünü pisləyir və nüfuzunu itirmək təhlükəsi qarşısında qalır. Vulfun kişi fiqurlarının təsvirinə görə çox vaxt Çexova bənzədilir. Hər iki müəllif kişiləri "yazıq və etibarsız, adətən hörmət axtaran" kimi təsvir edir. . . . Həm Çexovun, həm də Vulfun təsvir etdikləri kişi obrazları tez-tez zəif görünür, onlar arxayınlığa ehtiyac duyurlar, qadınlar isə güclü duruşları ilə fərqlənirlər.

Lilinin simasında roman evdar qadına alternativ olaraq yeni obraz təklif etmir, qadınların analıq rolunu alçaltmır. Əksinə, romanda qadınların məişət həyatında yaradıcılığından istifadə edərək fərdliyinə və azadlığına çatmaq üçün bir yol təklif edilir. Xanım Remzi də məhz belə edir. Doğrudur, o, Lili kimi sənətkar deyil lakin qeyd etdiyimiz kimi xanım Remzinin şam yeməyini təşkil etmə tərzi onun bacarıqlarını sübut edir və özünə dəyər qazandırmağa və azad olmağa kömək edir. Ənənəvi evliliyin məhdudiyyətlərinə baxmayaraq, xanım Remzi ərinə, uşaqlarına qayğı göstərməyi, qonaqlarını və hətta qonşularını mehribanlıqla qarşılamağı bacarır. Xanım Remzinin yaşadığı məmnunluq duyğusu və yaradıcılıqla məşğul rəssam Lili obrazının yaşadığı duyğu ilə eynidir.

*(... Xanım Remzi hərşeyi bir araya gətirir; Xanım Remzi deyir ki, "Həyat burada dayanır"; Xanım Remzi anı daimi bir şeyə çevirdi (başqa bir sahədə* Lilinin

*özü də anı daimi bir şey etməyə çalışdığı kimi) - bu, aşkarlıq xarakteri daşıyırdı. Xaosun ortasında forma var idi; bu əbədi keçid və axan (gedən buludlara və yarpaqların titrəməsinə baxdı) sabitliyə vuruldu. Xanım Remzi dedi ki, həyat burada dayanır. "Xanım Remzi! Xanım Remzi!" o təkrarladı. Bütün bunları ona borclu idi. )(36)*

# NƏTİCƏ

Əsrlər boyu qadınlara bəzi rollar və vəzifələr verilmiş, onu kişidən aşağı, zəif və həssas bir fərd kimi adlandırmışdırlar. Patriarxal sistem onlara öz qaydalarını qəbul etməyə məcbur etmiş, nəticə olaraq onları ev işlərini görməyə məhkum etmişdir. Yəni qadınlar, patriarxal cəmiyyətin müəyyən etdiyi sistemin hüdudları daxilində yaşamalıdır. Zaman keçdikcə, xüsusilə on doqquzuncu əsrdə sistem müəyyən bir nöqtədə zəiflədi və qadınlar onu aşmağın və məğlub etməyin yollarını axtardı.

- Bu dövr qadınlara uzun iş saatları, ədalətsiz iş şəraiti və ədalətsiz əmək haqqı ödəmələrini təklif edirdi. Patriarxal cəmiyyət qadınların cəmiyyətdəki yerini və imkanlarını dəstəkləmirdi. Qadınlar əsrlər boyu kişilərin gözündəki cinsi istismarın zərərli təsirindən əziyyət çəkirdilər. Bu dövrün şairləri, yazarları, dramaturqları bu məsələlərə diqqət yetirmiş, qadının cəmiyyətdə hansı problemlərinin olduğunu, onların aradan qaldırılması üçün hansı işləri görməli olduqlarına toxunmuşdurlar. Nəticə olaraq XX əsr kəskin dəyişiklikləri ilə üç mühüm feminizm dalğasının şahidi oldu. Bu dalğalardan yaranan ictimai basqı sayəsində qadınlar istəklərini hər zaman həyata keçirəcək gücü tapdılar.

-Viktoriya dövrünə aid olan gender rollarının sərt şəkildə təyin edilməsi dayaz və etibarsız münasibətlər yaradırdı və bu Vulfun yazılarında rast gəlinən insan münasibətlərinin yetərsizliyini təsvir etməyə kömək etdi. Vulfun nəzəriyyələrini və romanlarını oxuyaraq onun gender rolları haqqında əvvəlki müzakirələri necə rədd etdiyini anlaya bilirik. O, sistemin dağıdılmasını yox, gender rollarının təyin edilməsində dəyişiklik axtarırdı ki, bu da qadınlara, xüsusən də kişi hegemon cəmiyyətdə inkişaf etmələrinə imkan yaradacaqdı. Əlavə olaraq, kişilərin gender rollarında da yeni dəyişimlər gözlənilirdi. Nəticə olaraq Vulf kişi-qadın qarşılıqlı əlaqəsində bəzi fundamental aspektləri dəyişdirməyə müəyyən qədər nail oldu. An etibarilə müasir dövrdə qadınlar və kişilərdən artıq Viktoriya İngiltərəsində olduğu kimi davranmaları gözlənilmir.

Ümumiləşdirilmiş termin olan evdəki mələk anlayışı ilə Vulf Viktoriya İngiltərəsində qoyulan sərt gözləntiləri cəmiyyət qarşısına çıxarır. Kişilər cəmiyyətdə yaradıcılar, qadınların sevgisini qəbul edənlər və qadınların isə kişilərə qarşı sevgi və hörmət bəxş edənlər olmaları gözlənilirdi. Məhz bu fikirdən dolayı Vulf bu diskursu tənqid edir və gender rollarında bu ədalətsizliyi qəbul etmirdi.

-Woofun romanlarında və elmi işlərində, xüsusən də genderlə bağlı fikirlərini tam aydın şəkildə təqdim edir və Vulf qadınları reallıqda olmayan tam uydurma xarakterlə ,şəxsiyyət və böyüklüklə təsvir edir. O, Viktoriya İngiltərəsindəki qadınlar üçün məhdudiyyətlərin fərqində idi və buna görə də o, personajlarının mənliyini birbaşa aktlardan daha çox daxili monoloqlar və düşüncələr vasitəsilə təsvir edirdi.

-Gender rollarının sərt təbəqələşməsinin insanların qarşılıqlı əlaqəsinə necə mühüm təsir göstərdiyini Mayaka doğru kitabının təhlilindən görə bilərik. Mayaka doğru kitabının yazılması ilə əslində Vulf qadın oxuyucularına despot rejimin yıxılmasının əslində mümkün olduğunu və qadınların bir fərd kimi cəmiyyətdə mövcud olmaları üçün təsdiq gözləməyə ehtiyacları olmadığı bariz şəkildə bildirir. Onun verdiyi təkliflərdən biri də budur ki, qadınlar həyatın bütün sahələrində yaradıcılıqlarından istifadə etmək üçün əllərindən gələni etməlidirlər.

-Gender rollarının dekonstruksiya olmasında və feminist hərəkatın alovlanmasında birbaşa rolu olan Özünə aid bir otaq kitabı ilə Vulf qadınların iqtisadi, sosial, siyasi azadlıqları uğrunda mübarizə aparmağa və o dövrə qədər istedadsız hesab olunan qadınları yazı yazmağa başlayaraq ədəbiyyatda mövqe tutmağa çağırır. Patriarxal sistem kişilər tərəfindən idarə olunan və qadınların yoxsulluğunu artıran səbəbdir. Xüsusilə iqtisadi maneələr qadınları təcrübədən uzaqlaşdırır. Qadınlar yazmağa bir şey haqqında düşünməyə belə otaq tapa bilmirlər.

-Evlilik Vulfun “Gecə və Gündüz” (1919) və “Özünə aid otaq” (1929) əsərlərində diqqət yetirdiyi digər mühüm məsələdir. Onun əsərlərindəki evliliklərin onun üçün heç bir dəyəri yoxdur.Vulf patriarxal cəmiyyətin yaratdığı qadın profili tənqid edilir və Gecə və Gündüz (1919) əsərində müasir qadınların şəklini çəkir və eynilə cəmiyyətin qadınlara qoyduğu məhdudiyyətləri və maneələri qəbul etmir.

-Virciniya Vulfun Xanım Dalloveydəki əsas məqsədi , cinsiyyətçilik və ya qadınların obyektivləşdirilməsi kimi mənfi cəhətləri simvolizə edən çox müxtəlif xarakterlərə malik cəmiyyətin təsvir etməkdir. Xanım Dallovey və bir neçə qadın obrazı ilə Vulf qadınları ənənəvi evliliklərin yaradacağı təsirlərdən qurtulmağa dəvət edir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Ağaoğlu M. Virciniya Vulf və ya qadınların Coysu // Ədəbiyyat qəzeti. 2015/ s22

2. Elçin. Şəxsiyyət və İstedad.Baku,UNDP,2009/ s94.

3. Platon. Dövlət. Elmi redaktor: Q. Əliyev. Bakı: Təbib nəşriyyatı, 1999/ s157.

4. Zülfüqarova F. İngilis və Azərbaycan ədəbiyyatlarında insan konsepsiyası (Virciniya Vulf Afaq Məsudun yaradıcılıqları əsasında). Bakı: "Elm və təhsil" 2012/s232.


## Rus dilində


5. Лейтес Н. Роман как художественная система. Пермь: 1985/ с180.

6. Мелетинский Е.М. Поэтика мифа. М.: Наука, 1976/ с.46.

7. Михальская Н.П. Пути развития английского романа 1920,123с.


## İngilis dilində


8. Abbott, E. A. Flatland: Roberts brothers, 1885/ p 155.

9. Armstrong Nancy. Desire and Domestic fiction: A political history of the novel. New York and Oxford: 1987/ p317.

10. Bradbury and McFarlane, Modernism: A Guide to European Literature, Penguin Literary Criticism,1978/ p 688.

11. Butler, J. The Psychic Life of Power: Theories in Subjection, Stanford: Stanford University Press, 1997/ p 218.

12. Butler, J. Gender Trouble. New York and London: Routledge, 1999/ p180.

13. Cixous, H., Cohen. The Laugh of the Medusa. Oxford, Oxford University Press, 2004/ p 875.

14. Edmondson, Annalee. ―Narrativizing Characters in Mrs. Dalloway‖. Journal of Modern Literature, 2019/ p 231.

15.Friedan, B. Fermaglich. The Feminine Mystique: W.W. Norton & Company, 2013/ p 473.

16. Garcia, C. D. ―Decentring Discourse, Self-Centred Politics: Radicalism and the Self in Virginia Woolf�given Mrs Dalloway. Journal of the Spanish Association of Anglo- American Studies. 2010/ p 220.
17. Lee, H. The Novels of Virginia Woolf. London : Methuen& Co Ltd.1977/ p 218.
18.Marcus, Jane. Art and Anger, Feminist Studies, 1978/ p 109.
19. Mazzuchelli, Pamela Gannon.The Rebellious Angel: Virginia Woolf, To the Lighthouse, and the Debate about Female Anger, Rhode Island College, Providence.2009/ p 145.
20.Mitchell, J. Psychoanalysis and Feminism: A Radical Reassessment of Freudian Psychoanalysis, Basic Books, 2000/ p 321.
21. Morris Pam. Literature and Feminism. Wiley-Blackwell: 1993/ p 228.
22. Pamela L. Caughie, "A Feminist Woolf," A Companion to Virginia Woolf. John Wiley and Sons Ltd. 2016/ p 314.
23. Rayan, Derek. Virginia Woolf and The Materiality of Theory : sex, animal life,.Edinburgh University press. 2013/ p 77.
24. Rousseau, J. J. Emile, Or on Education: NuVision Publications, 2007/ p 342.
25. Rossi, A. S. The Feminist Papers: From Adams to de Beauvoir: Northeastern University Press, 1973/ p 205.
26.Simone de Beauvoir. The Second Sex. Harmondsworth, Middlesex, UK, Penguin Books, 1949/ p 144.
27.Simpson, Kathryn. Gifts, Markets and Economies of Desire in Virginia Woolf,. Palgrave Macmillan, New York. 2009/ p 200.
28. Slipp, S. The Freudian Mystique: Freud, Women, and Feminism. New York University Press, 1995/ p 252.
29. Sowon S. Park, "Suffrage and Virginia Woolf: 'The Mass behind the Single Voice,'" The Review of English Studies, New Series.2005/ p 120.
30. Todd, J. Woman's Rights. MPublishing, 2011/ p 36.
31. Walters, M. Feminism: A Very Short Introduction. Oxford, Oxford University Press, 2005,/ p 159.
32. Woolf Virginia. A Room of One's Own. England: 1929/ p 112.

33. Woolf Virginia. *Three Guineas*. London: Hogarth.1938/ p 285.
34. Woolf, Virginia. Mrs. Dalloway. New York: Harcourt, 1981/ p 224.
35.Woolf, Virginia, Professions for Women, 1931/ p42.
36. Woolf, Virginia. To The Lighthouse. London: Hogarth.1927/ p 145.
37. Wollstonecraft, M. A Vindication of the Rights of Woman. London, Hardback.1792/ p 512.
38. Zwerdling, Alex. Mrs. Dalloway and the Social System. 2016/ p 116.

**Türk Dilində**

39. Koç, F. D. The Anti- Militanist Attitude of Virginia Woolf As a Step That Shapes Her Perception of Feminism. Fatih Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yüksek Lisans, İstanbul. 2011/ s 55.
40. Urgan, M.Virginia Woolf. İstanbul: Yapı Kredi Yayınları.2007/s 242.